
QEYBƏT

# QEYBƏT

## (ÖLÜ ƏTİ YEMƏK)

**Bakı-2010**

**Tərtib edən.**
**İntiqam Rüstəmov**

**Redaktor**
**Bağır Orucov**

Kitaba Azərbaycan Respublikasının DQDK 26.04 2008-cu il DK-153/Q saylı qərarı ilə satışına icazə verilmişdir.

***Bu kitab mələklərin, peyğəmbərin, xüsusi ilə də sonuncu peyğəmbərimiz Mühəmmədin (s) məşuqu olan əsrin imamı Məhdiyə (ə.s) ithaf olunur.***

# ÖN SÖZ

Aləmlərin Rəbbi və yeganə yaradıcısı olan uca Allaha həmd və şükurlər olsun. Bütün peyğəmbərlərə xüsusilə də son peyğəmbərimiz Həzrət Mühəmmədə və onun hər bir günahdan pak olan Əhli-beytinə salam olsun.

Allah-Təala insanları çox mühüm olan bir hədəf üçün yaratmışdır. İnsan o hədəfə dogru yönəlir və vəzifəsini yerinə yetirərsə, Allahın xəlifəsi ola bilər. Hədəfə həqiqətən də yetişmək üçün gediləcək yol yaxşı bilinməli, maneələr və bu yola yetişə bilməmək üçün qurulmuş tələlər aşkarlanmalıdır. Əks təqdirdə maneələrə düşmək və uçurumlardan yuvarlanmaq qaçılmazdır. Əlinizdəki kitab bu maneə və uçurumların ən qorxulusunu sizin nəzərinizə yetirməkdədir.

İnsan yer üzündəki bütün varlıqların ibadətinə sahib olsa belə qeybəti tərk etmədikcə, xeyirsiz bir varlıq sayılır. Çünki qeybət əldə edilən bütün yaxşı əməlləri əks tərəfə aparır. Elə olan halda bu önəmli maneənin yaxşıca tanınması və necə müalicə edilməsini öyrənmək lazımdır.

Əslində qeybətə – sosial həyatı təhdid edən canavar - demək daha məqsədə uygundur. Çünki qeybət sadəcə olaraq fərdləri deyil, cəmiyyəti də əhatəsi altına alan böyük bir ünsürdür.

Bu mövzu haqda hər bir yerdə söhbət açsam da yenə də dəfələrlə təkrarlanması lazım olan bir mövzu olduğunu düşünürəm. Xüsusilə də axırıncı dəfə rastlaşdığım bir hadisə

nəticəsində bu mövzu barədə bir kitab yazmağın lazım olduğunu qənaətinə gəldim.

Hörmətli bir hacıyla söhbət edirdik. Haci böyük bir şövqlə danışır insanın qəlbini riqqətə gətirən mövzulardan söhbət acırdı. Onu qəlbən dinləyir öz-özümə – «Demək dünyada hələ də yaxşı insanlar varmış» - deyirdim. Amma bir az keçməmişdiki söhbətin mövzusu dəyişməyə başladı. Çaşıb qalmışdım. «Hacı dayan! Qeybətlə bu gözəl söhbətimizi pozma» - deyə etiraz etdim.

«Mən qeybət etmirəm ki, həqiqəti deyirəm» - deyə cavab verdi.

Təəccübüm ikiqat artmışdı. Bu qədər dindar olan bir şəxs öz diliylə desək otuz il minbər yanında əyləşmiş şəxs qeybət haqqında belə danışırdı. Öz-özümə – belə bir şəxs necə olur ki, qeybətin mənasını başa düşmür və qeybətlə iftiranı bir-birindən fərqləndirə bilmir? - deyə sual etdim.

Bunun üçün də ona qeybətin nə oldugunu, çirkinliklərini və zərərlərini anlatmağa başladım.

Haci riqqətə gəlmişdi. «Necə olur ki, bu vaxta qədər qeybətin mənasını və necə fəsadlara yol acdığını bilməmişəm» - deyə heyfslənərək qollarını boynuma doladı və üzümdən öpdü.

Bu hadisə məni dərindən düşünməyə vadar etdi. Uzun illər ərzində bu mövzu barədə bir çox yerlərdə söhbət açmama rəğmən bu dəfə qələmə alaraq kitab halına salmaq lazım gəldiyini düşünməyə başladım. Düşüncələrimi həyata keçirtdiyimə məni müvəffəq etdiyi üçün Allah-Təalaya şükürlər olsun.

Bu işdə mənə komək edən bütün qardaşlarıma minnətdarlığımı bildirirəm. İnşəallah ki, bu əməllərimiz məqbul sayılar.

**Hörmətlərlə Arif Dasdəmir**
**21.08.2006**

# 1-Cİ HİSSƏ

## QEYBƏT

### Qeybətin tanıdılması

Yanında olmayan şəxsin qüsurunu onu alcaltmaq məqsədilə başqalarının yanında söyləməyə qısa olaraq qeybət deyilir.

Hadisələrdə isə qeybətin tam acıqlaması verilir.

Əbuzərr Qəffari belə nəql edir: «Peygəmbərdən sorusdum: - Qeybət nədir.

Peygəmbər buyurdu: - «Qeybət» qardaşının sevmədiyi bir seyi söyləməkdir».

- Ey Allahın Rəsulu əgər söylədiyim qüsur həqiqətən də onda varsa?

Allahın Rəsulu buyurdu: «Bil ki, söyləmiş olduğun qüsur həqiqətən də onda varsa, onun qeybətini etmiş sayılırsan, olmayan qüsuru söyləmək isə iftira etmək deməkdir».[1]

İmam Sadiq (ə) bir hədisində belə buyurur: «Qeybət; qardaşında Allahın üstünü örtmüş olduğu şeyləri deməndir. Böhtan isə qardaşında olmayan qüsurları söyləməndir».[2]

Bu hədislərə diqqət edildiyi zaman qeybətin mənası tam olaraq açıqlandığı kimi iftiranın da mənası tam olaraq aydınlaşır.

Hədislərdə qeybətlə iftiranın mənalarının bir yerdə gəlməsinin hikməti bu ola bilər; Dövrümüzdə qeybətlə iftira

---

[1] «Məhəccətul-bəyza» cild 5, səh. 255.

[2] «Məhəccətul-bəyza» cild 12, səh. 282.

qarışdırıldığı kimi, bu problemin o vaxtlarda da mövcud olduğu aydınlaşır. Və yaxud da, əsasən bir şeyi onun yaxın mənası ilə tanımaq daha asandır. Belə olan halda qeybətlə iftira yaxın mənalardadır. Qeybətin nə olduğunu yaxşı anlayan bir şəxs iftiranın da nə olduğunu dərk edəcəkdir.

Qeybətin tanınması ilə bağlı hadisələrdən faydalandıqdan sonra qeybət üçün qeyd etdiyimiz tərifə dönək. Bu tərifə diqqət etdiyimizdə qeybət üçün qeyd edilən ölçünün dörd əsasa bağlı olduğunu görəcəyik:

1 - Qeybəti edilən şəxsin yaxınlıqda olmaması.

2 - Xoşa gəlməyən bir şeyin olması.

3 - Alçaltmaq üçün olması.

4 - Başqalarına söz çatdırmaq.

Qeybətin düzgün bir şəkildə aydın olması üçün bu kiçik başlıqları izahlı formada sizin nəzərinizə çatdırmaq daha doğru olardı. Bu mövzulara diqqət edildiyi zaman «Bu da qeybət sayılırmı?» sualına oxucuların rahat bir şəkildə cavab verəcəklərinə inanıram.

### 1-Qeybəti edilən şəxsin yaxınlıqda olmaması

Qeybəti edilən şəxsin yaxınlıqda olmaması lazımdır. Əgər qüsuru deyilən şəxs yaxınlıqda olarasa, o zaman bu qeybət günahından çıxaraq başqa qorxunc günaha dönər.

### 2-Xoşa gəlməyən bir şeyin olması

Xoşa gəlməyən və qüsur bilinən şeylər bir neçə qismə bölünür.

İslamda haram və qüsur olaraq tanınmayan, amma ürfdə qüsur bilinən şeylərin də başqalarına söylənilməsi qeybət sayılır. Bu mövzunun daha aydı olması üçün qüsur növlərini diqqətinizə yetiririk.

## QÜSURUN NÖVLƏRİ

Hansı növdən olmasından asılı olmayaraq qüsuru üzə vurmaq qeybət deməkdir. Bunun üçün də qüsur növlərini belə sıralamaq daha məqsədə uyğundur:

**A) Ruhi qüsurlar:** Həsəd, kibir və sair ruhi xəstəliklərə düçar olmuş birinin bu qorxunc qüsurlarını başqalarına söyləmək qeybətdir.

**B) Cismani qüsurlar:** Başqalarının xəbəri olmadığı xəstəlik və ya şikəstlik kimi bir problemi başqalarına söyləmək də qeybətdir. Dediklərimə misal olaraq aşağıdakı hədisi diqqətinizə yetirirəm:

Bir gün Peyğəmbərimizin (s) yanında bir şəxsin adı çəkilən zaman orada olanlardan biri həmin şəxs üçün - O gücsüz və acizdir - dedi. Bunu eşidən Həzrət (s) - Qardaşının qeybətini etdin! - dedi.[1]

**C) Dinimizdə qüsur bilinən şeylər:** Namaz qılmamaq, oruc tutmamaq, ərin həyat yoldaşına zülm etməsi və sair bəzi davranışlar dinimizdə qınanan və haram olan davranışlardır. Bu kimi davranışları başqalarına çatdırmaq da qeybət sayılır.[2]

Yaşı çox olan və namaz qılmayan bir şəxs üçün «Haradasa bir ayağı qəbirdədi, amma hələdə namaz qılmır»

---

[1] «Meracus-səadət» səh. 429.
[2] «Məhəccətul-bəyza» cild 5, səh. 255.

və ya söhbət əsnasında haqqında yaxşı sözlər deyilən bir şəxs üçün «Sizin təriflədiyiniz şəxsin gizli bir yerdə orucunu yeyən gördüm» kimi sözlərlə pis nisbət vermək və başqalarının bilmədiyi növbənöv qüsurları açıqlamaq da qeybət sayılır.

**Ç) Maddi qüsurlar:** Maddi vəziyyəti yaxşı olmayan birinin vəziyyətini alçaltmaq məqsədilə başqalarına çatdırmaq da qeybət və günahdır.

**D) Nəsəbi qüsurlar:** Başqalarının ana-atasında və yaxud nəslində olan qüsurları dilə gətirmək qeybətdir. Məsələn, «O şəxsin atası simicdir», «Bunlar nəsillikcə xəstədirlər!» və sairə kimi sözləri demək haramdır.

**E) İş və ya evdə görülən qüsurlar:** Başqalarının evində və yaxud işində olan bir qüsuru dilə gətirmək də qeybətdir. Məsələn, «Onun gördüyü işlə dilənçilik arasında heç bir fərq yoxdur», «Evi zibilliyə bənzəyir» və sair sözlər qeybətdir.

### 3-Alçaltmaq və yaxud pis tanıtdırmaq üçün danışmaq

Deyilən qüsurlar qarşı tərəfi alçaltmaq və ya pis tanıtdırmaq məqsədilə edilirsə, qeybət sayılır. Bu səbəbdən hər bir kəsin bildiyi bəzi qüsurları alçaltmaq məqsədilə deməmək qeybət sayılmaz. Məsələn, hər kəsin kor və ya şikəst bildiyi bir şəxs üçün «Filan şəxsin gözləri görmür» və yaxud «Filan şəxs şikəstdir» demək qeybət sayılmaz.[1]

Burada belə bir nöqtə ortaya çıxır; Gizli bir qüsur hansı bir məqsədlə söylənilməsindən asılı olmayaraq qeybət

[1] «Təfsiri-Nümunə» cild 22, səh. 192.

sayılır. Amma hər kəsin bildiyi bir qüsur qınama və alçaltma məqsədi ilə söylənilirsə, qeybət olmasa da başqa bir tərəfdən haram sayılır.

Alçaltma məqsədi olmadığı təqdirdə heç bir problemin olmadığını İmam Cəfəri Sadiqin (ə) hədisində də başa düşə bilərik. Necə ki, İmam qeybətin tərifində belə buyurur: «Qeybət, qardaşının gizli qüsurlarını deməkdir. Amma hamının bildiyi hirs, tələskənlik və bu kimi sifətləri söyləmək qeybət sayılmır».[1]

**4-Başqalarına çatdırmaq, eyb axtarmaq.**

Qeybət, sadəcə olaraq dillə işlənən bir günah deyildir, fərqli ifadələrdə də olan bir davranışdır. Bunun üçün də qeybət növlərini bilməyimiz lazımdır:

## QEYBƏTİN NÖVLƏRİ

**A) Sözlə qeybət;** bu qeybət, hamının bildiyi ən yayılmış qeybət növüdür. Bir müsəlmanın qüsurunu bir başqasına «dillə» deyərək işlədilir.

**B) Yazıyla qeybət;** İnsan başqasının qüsurunu bəzən demək əvəzinə yazaraq ifadə edir. Bu halda dinləyici əvəzinə oxuyucu vardır. Bu növdə olan yazıları oxumaq da (bəzi hallar istisna olmaqla) günahda şəriklik sayılır**.**

**C) Əda yolu ilə qeybət;** Başqalarının qüsurunu bəzi hal, hərəkət və davranışlar yamsılamaq da qeybətdir. Bu halda dinləyici əvəzinə izləyici olur.

---

[1] «Üsuli-kafi», cild 2, Əl-ğeybə vəl-butan babı, hədis 7.

**Ç) Eyham yoluyla qeybət;** Başqalarının qüsurunu eyhamla yamsılamaq da qeybət sayılır. Məsələn, mövqe və məqam düşkünü olan bir şəxsə «Məqam düşkünü olmaqdan Allaha sığınıram» və yaxud çox danışan biri üçün «Çox danıışmaq da bir növ xəstəlikdir» demək qeybət sayılır.

**D) İşarəylə qeybət;** Başqalarının qüsurunu əl, qol və sair işarələrlə yamsılamaq da qeybətin fərqli bir növüdür. Burada da dinləyici əvəzinə izləyici olur.

## Qeybət böyük günahlardandır.

Alimlər böyük günahlarla kiçik günahların tərəfində bəzən ixtilafa düşmüşlər. Əllamə Məclisi Şeyx Bəhaidən nəql edilən tərifləri belə sıralayır;

1. - Quranda əzabla təhdid edilən günahlar böyük günahlardır.

2. - İslamın cəzaya layiq bildiyi günahlar böyük günahlardır.

3. - Dini yüngül göstərən hər növ günah böyük günahdır.

4. - Haram olduğu dəlillərlə isbatlanan günahlar böyük günahlardır.

5. - Quran və hədislərdə şiddətlə qınanan hər bir günah böyük günahlardandır.

6. - İbn Məsuda görə «Nisa» surəsinin əvvəlində 31-ci ayəsinə qədər olan bölümdə qeyd edilən günahlar böyük günahlardır

7. - Bütün günahlar böyük günahlardandır. Nəticə etibariylə bütün günahlar Allaha qarşı çıxmaq deməkdir. Günahların böyük və ya kiçik olmaqlarına baxdıqmızda isə

bunun nisbi olduğunu görərik. Məsələn, bir naməhrəm xanımı öpmək zinaya görə kiçik günahdır. Amma eyni günah naməhrəm bir xanımla baxmaqdan böyük günahdır.

Qeyd edilən nəzərlərə diqqət yetirdiyimiz zaman bütün təriflərdə bəzi çatışmamazlıqların olduğunu görürük. Amma bütün nəzərləri bir yerə cəm edib belə bir tərif vermək mümkündür: «Qurani-Kərim və hadisələrdə şiddətlə qınanan və yaxud haqqında cəza veriləcəyi qeyd edilən bütün günahlar böyük, digərləri isə kiçik günahlardır».

Kiçik və böyük günahların təriflərini nəzərdən keçirdikdən sonra indi də qeybətin hansı qrup günahlardan olduğunu nəzərdən keçirək. Qeybət, Qurani-Kərim və hadisələr də qınanmış, haqqında əzab vəd edilmiş, qeybət edən şəxsin aqibətinin çox qorxunc olduğu bildirildiyi üçün, böyük günahlardan sayılır.

Qeybətin böyük günahlardan olduğu mövzusunda Şeyx Ənsari belə deyir: - Hadisələrdə qeybətin böyük günahlardan olduğu qeyd olunur. Hətta bəzi böyük günahlardan çox şiddətlidir.[1]

İmam Həsən Əsgəri (ə) «Hucurat» surəsinin 12-ci ayəsinin təfsirində belə buyurur: «Siz həqiqi bir mömininin qeybətini etdiyiniz zaman bilin ki, onun hörməti cənazənin hörmətindən cox ucadır».[2]

---

[1] «Kitabul-Məkasib» cild 1, səh. 267.
[2] «Mustədrək» Kitabul-həcc, bölüm 32.

# 2-Cİ HİSSƏ

## QEYBƏTLƏ BAĞLI AYƏLƏR

### 1-ci ayə:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اجْتَنِبُوا كَثِيرًا مِنَ الظَّنِّ إِنَّ بَعْضَ الظَّنِّ إِثْمٌ ۖ وَلَا
تَجَسَّسُوا وَلَا يَغْتَبْ بَعْضُكُمْ بَعْضًا ۚ أَيُحِبُّ أَحَدُكُمْ أَنْ يَأْكُلَ لَحْمَ أَخِيهِ مَيْتًا
فَكَرِهْتُمُوهُ ۚ وَاتَّقُوا اللَّهَ ۚ إِنَّ اللَّهَ تَوَّابٌ رَحِيمٌ

***«Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi (heç bir əsası olmayan zənn) günahdır. (Bir-birinizin eybini, sirrini) arayıb axtarmayın, bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar (qeybət də belədir). Allahdan qorxun. Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir!»***[1]

**Ayənin nazil olma səbəbi:**

Peyğəmbərimizin (s) iki səhabəsi Salman Farsinin qeybətini etdiyi üçün bu ayə nazil olmuşdur.

Salman iki səhabə tərəfindən Həzrət Muhəmmədən (s) azuqə almaq üçün göndərilmişdi. Həzrət də Salman Üsamə ibn Zeydin yanına göndərdi. Üsamə Beytül-mal nəzarətçisi idi. Üsamə də «İndi verməyə heç bir şey yoxdur» demişdi.

İki dost Üsamə haqqında «O, xəsislik etdi», Salman üçün isə - «Onu Səmiha quyusuna göndərsək, həmin quyunun suyu quruyar» – dedilər.

---

[1] «Hucurat» surəsi, ayə 12.

Həzrət bunu eşitcək onlara – «Ağzınızda ət çeynədiyinizi görürəm» – dedi.

Onlar dedilər: - «Ey Allahın Rəsulu (s), biz bu gün heç ət yeməmişik».

Peyğəmbər buyurdu: «Bəli, siz Salmanla Üsamənin qeybətini edərək onların ətini yediniz».

Bu əhvalatdan sonra yuxarıda qeyd edilən ayə nazil oldu. Bununla da qeybət, bütün müsəlmanlara qadağan edildi.[1]

**Ayənin qısa təfsiri:**

Allah-təala bu ayədə gözəl bir bənzətmə etmişdir. Ayə, inanclı bir müsəlmanı «qardaşa», onun qürurunu «ətinə», qeybəti edilən şəxs isə (xəbəriniz olduğu üçün) «cənazəyə» bənzətmişdir.

Bu bənzətmələr qeybətin nə qədər pis və qorxunc günah olduğunu açıqladığı kimi, bunu edənin nə qədər də vəhşi, insafsız, hüsuma meylli və vicdansız biri olduğunu vurğulayır. Çünki, insan necə olursa olsun qardaşına və onun cənazəsinə hörmət göstərməli olduğunu bilməlidir. O qardaşının cənazəsini yeməyi ağlından belə keçirtmədiyi kimi ona ən adi hörmətsizliyi belə düşünə bilməz.

Qeybət edən şəxs, adi və seviyyəsi olmayan bir şəxsdir. O, qardaşının ətini yeməklə sakitləşməyərək bu ziyafətə başqalarınıda dəvət edər. Allah, insanlara etmiş olduqları günahların həqiqi üzünü xatırlatmaq üçün «məyyitən» (ölü) təbirindən istifadə edərək, onları bu qəflətən oyandırmaq və beləcə diksindikləri, iyrəndikləri, pis baxdıqları və nifrət

[1] «Məcməul-bəyan» cild 9, səh. 135; «Təfsiri-Quranil-Əzim» cild 4, səh. 191; «Tənbihul-qafilin».

etdikləri şeylərə özlərinidə bulaşdırmalarının qarşısını almaq istəyir.

İnsan üçün «Ölü qardaşınızın ətini yemək istəyirsənmi?» sualı o qədər nifrət edicidi bir təklifdir ki, bu təklifi qəbul edən şəxsi heç kim insan belə bilməz.

Ona görə də Allah-təala insana «İyrəndinizmi?» sualını verməklə «O zaman iyrəndiyiniz və nifrət etdiyiniz bu kimi şeylərdən çəkinin, qardaşınızın qeybətin edərək onun ətini yeməyin!» deyə buyurur.

**2-ci ayə**

وَيْلٌ لِكُلِّ هُمَزَةٍ لُمَزَةٍ

***«(Dalda) qeybət edib (üzdə) tənə vuran hər kəsin vay halına!»***[1]

**Ayənin nazil olma səbəbi:**

Bəzi müfəsirlərə görə bu ayə Vəlid ibn Muğəyrə haqqında nazil olmuşdur. Çünki, Muğəyrə Həzrət Məhəmmədin (s) arxasıyca danışar və onu ələ salardı.

Bəzi müfəssirlər də bu ayənin Əhnəs ibn Şərik, Üməyyə ibn Xalif və As İbn Vail kimi müşriklərin liderləri haqqında nazil olduğunu bildirmişlər.[2]

Bildiyi kimi ayələr xüsusi şəxslər haqqında nazil olsa da, həmin ayələri təkcə bu şəxslərə aid etmək yalnışdır. Yəni, bu ayələr eyni sifətlərə malik olan hər kəsə aid edilməlidir. Amma «Qeyd olunan şəxslər zəmanəmizin ən

---

[1] «Huməzə» surəsi, ayə 1.

[2] «Əl-Mizan fi təfsiril-Quran» cild-20, səh. 507; «Təfsiri-nümunə» cild 27, səh. 308.

bariz nümunələridirlər» deyilə bilər. Dövrümüzdə də bu ayələrin həmsöhbəti olan bir çox şəxslər vardır. Onlar kimi olmaqdan Allaha sığınırıq.

**Ayənin qısa təfsiri:**

Bu surənin ilk ayəsinə nəzər yetirdiyimiz zaman qeybətin necə də pis, qorxunc və əzabla dolu bir günah olduğu diqqətə gəlir. Çünki, Allah-təala bu surəyə təhdidlə başlamışdır.

**«Huməzə» və «Luməzə»-nin mənaları**:

Huməzə məna etibarı ilə «qırmaq» sözünə uyğun gəlir. Qeybət edənə də əks tərəfin şəxsiyyətini qırdığı üçün «Luməzə» deyilir. Bu iki kəlmənin mənalarının bir olub olmadığı barədə müfəssirlər arasında fikir ayrılığı vardır.[1] Fikirlər bunlardan ibarətdir:

A) «Huməzə» və «Luməzə» eyni mənalı kəlmələrdir. Bu halda iki kəlmənin yan-yana işlədilməsi təkid üçündür.[2]

B) «Huməzə» qeybət etmək, «Luməzə» isə qüsur axtarmaq mənasına gəlir.[3]

C) «Huməzə» əl qol və baş vasitələri ilə eyb axtarmaq, «Luməzə» isə dillə qüsuru başqalarına çatdırmaqdır.

Ç) «Huməzə» insanın üzünə durmaq, «Luməzə» isə dalınca danışıb qüsuru üzə çıxarmaq deməkdir.[4]

D) «Huməzə» aşkarda «Luməzə» isə gizlində qusuru söyləməkdir.

---

[1] «Təfsiri-Numunə» cild 27, səh. 309-310.
[2] «Məcməul-bəyan» cild 6, səh. 229.
[3] «Məcməu Vərran» səh. 124.
[4] «Məcməul-bəhrəyn» cild 4, səh. 34.

E) Hər iki kəlmə başqalarını pis və çirkin ləqəblərlə adlandıran kəs mənasındadır.

Bu nəzəriyyədən sonra «Huməzə»nin qeybət olduğu aydın olur. Bu ayəyə isnad edərək qeybətin çox qorxunc bir günah olduğu və qınandığı isbat etmişdir.

İslam dini insanların şəxsiyyətinə önəm verən bir dindir. Buna görə də şəxsiyyətləri qəran, incidən və alçaldan hər şeyi böyük günah bilir. Cəmiyyətdə insanların şəxsiyyətini ən çox zədələyən ünsürlərdən birinin də qeybət olması gün kimi aydındır.

«Huməzə»nin (qeybətin) çirkinkiliyi İmam Sadiq (ə) bu hədisə açıq-aydın olaraq ortaya qoyur: İmam atasından, o öz atasından, beləliklə də onlar Rəsuli-Əkrəmdən (s) belə buyurduğunu nəql edirlər: «Adəm övladlarından surəti dəyişdirilənlərdən on üç canlı vardır... Əqrəbə gəldikdə isə, o, qeybət edən bir şəxs idi. Allah onu əqrəbə çevirdi».[1]

**3-cü ayə**

هَمَّازٍ مَشَّاءٍ بِنَمِيمٍ

***«Qeybət edənə, söz gəzdirənə».***[2]

Bu ayə Peyğəmbərinizin (s) düşmənlərinin xüsusiyyətlərindən biri kimi göstərilir. Çünki, «Qələm» surəsinin ilk ayələrində Həzrət (s) əxlaqi xüsusiyyətləri, daha sonra isə onun düşmənlərinin xüsusiyyətləri qeyd

---

[1] Surətlərinin dəyişmələrindən məqsəd, əvvəlki qövlərin etdikləri bəzi günahlar ucbatından Allah tərəfindən insan şəklindən çıxmalarıdır. Allaha qarşı çıxan Yəhudilər meymun şəklinə düşmələri də bunlara aiddir. Allah-Təala bu növ əzabları Həzrət Muhəmmədin (s) ümmətindən uzaq etmişdir.

[2] «Qələm» surəsi, ayə 11.

olunur. Bu xüsusiyyətlər arasında qeybət günahıyla vəsf edilmələri çox diqqət çəkən məqamlardan biridir.

«Həmmaz» «Həmz» sözündən olub, qeybət etmək və eyb axtarmaq mənalarına uyğun gəlir. «Nəmim» isə xəbərçilik mənasındadır. Tərəflər arasında get-gəl edən, söz çatdıran və düşmənçilik yaradıb fəsad yaradan şəxslər bu növdən olanlardır.

Ayədə «Həmmaz» kəlməsi ilə «Məşşa» kəlmələri ərəb ədəbiyyatına görə mübağilə üçün işlədilirlər. Bu da, eyni xüsusiyyətlərə malik olanların belə işləri israrla davam etdirdiklərini vurğulayır.

«Əl-Mizan» kitabının müəllifi Əllamə Təbatəbai qeyd olunan ayənin təfsirində belə deyir: «Həmmaz sözünün əsli həmz kəlməsidir. Eyb və həqarət mənasındadır. Bəziləri də göz və işarətlə edilən həqarət olduğunu deyirlər. Bəzən də çox qeybət edən şəxs üçün deyilmişdir».[1]

**4-cü ayə**

إِنَّ الَّذِينَ يُحِبُّونَ أَنْ تَشِيعَ الْفَاحِشَةُ فِي الَّذِينَ آمَنُوا لَهُمْ عَذَابٌ أَلِيمٌ فِي الدُّنْيَا وَالْآخِرَةِ ۚ وَاللَّهُ يَعْلَمُ وَأَنْتُمْ لَا تَعْلَمُونَ

***«Möminlər arasında (onları nüfuzdan, hörmətdən salmaq məqsədilə) pis söz yaymaq istəyənləri dünyada və axirətdə şiddətli bir əzab gözləyir. (Hamının əməlinə, yayılan şayiələrin, atılan böhtanların doğru olub-olmadığını) ancaq Allah bilir, siz bilməzsiniz!»***[2]

Allah-təala bu ayədə ümumi bir qaydanı açıqlamış, «Hər növ pislik və günahın yayılmasının qadağan

---

[1] «Əl-Mizan fi təfsiril-Quran» cild 20, səh. 29.
[2] «Nur» surəsi, ayə 19.

olunduğunu» bildirmişdir. Burada günahı yaymağı sevənlərin qınanmaları, hadisənin nə qədər çirkin olduğunu açıqladığı kimi, bu mövzunun nə qədər təkid edildiyini də göz önündə canlandırır.

**«Fəhşah» kəlməsi haqqında qısa anlayış.**

Rağib İsfahaniyə görə «fəhşa, fəhş və fahişə» kəlmələri çox çirkin söz və davranışlar üçün istifadə olunur.[1]

وَالَّذِينَ يَجْتَنِبُونَ كَبَائِرَ الْإِثْمِ وَالْفَوَاحِشَ وَإِذَا مَا غَضِبُوا هُمْ يَغْفِرُونَ

***«O kəslər üçün ki, böyük günahlardan rəzil işlərdən (zinadan) çəkinər, (birinə) qəzəbləndikləri zaman (onun günahını) bağışlayanlar»***[2] ayəsində deyildiyi kimi bütün Quranda da bu mənada qeyd olunmuşdur. Bu mənaya diqqətlə nəzər qıldıqda «fəhşa» sözü təkcə cinsi məsələlər üçün qeyd edilməmiş, hər növ günahın yayılmasını nəzərdə tutmuşdur.

Günahların yayılmasında qeybətin böyük rol oynaması olduqca açıq-aydındır. Çünki, günahlar başqalarına bu yolla çatır və yayılır. Bu ayəyə isnad edərək qeybətin haram olduğunu (pislik və günahların yayılmasında böyük rol oynadığı üçün) deyə bilərik.

Hadisələrdə də günahı yaymağın çox çirkin bir şey olduğu qeyd edilir. Məsələn, Həzrət Muhəmməd (s) bu mövzu haqqında belə buyurur; «Günahı yayan onu edən kimidir».[3]

---

[1] «Təfsiri Numunə» cild 14, səh. 403-404.
[2] «Şura» surəsi, ayə 37.
[3] «Üsuli-kafi» cild 2.

Bu mövzu haqqında İmam Musa Kazımdan (ə) belə bir rəvayət qeyd olunur: «Bir şəxs İmamın yanına gələrək dedi: - Bir din qardaşımın xoş olmayan bir şey etdiyini eşitdim. Bunu edib etmədiyini ondan soruşanda, o, bunu rədd etdi. Amma onun pis hərəkəti etdiyini güvənilən bir insandan eşitmişdim».

İmam buyurdu: - Qardaşın haqqında qulaq və gözunu yalançı bil. Hətta 50 nəfərdə and işərək o işə şahid olduqlarını desələr belə, qəbul etmə. Qardaşının sözünü qəbul et və onun şəxsiyyətini ləkələyən şeylərə ictmaiyyətə açıqlama. Yoxsa səndə Allah-təalanın haqlarında belə buyurduğu şəxslərdən olarsan.[1]

إِنَّ الَّذِينَ يُحِبُّونَ أَنْ تَشِيعَ الْفَاحِشَةُ فِي الَّذِينَ آمَنُوا لَهُمْ عَذَابٌ أَلِيمٌ فِي الدُّنْيَا وَالْآخِرَةِ ۚ وَاللَّهُ يَعْلَمُ وَأَنْتُمْ لَا تَعْلَمُونَ

***«Möminlər arasında (onları nüfüzdan, hörmətdən salmaq məqsədi ilə) pis söz yaymaq istəyənləri dünyada və axirətdə şiddətli bir əzab gözləyir. (Hamının əməlini yayılan şayələrin, atılan böhtanların doğru olub-olmadığını) ancaq Allah bilir, siz bilməlisiniz!»***[2]

«Günahın yayılmasını istəyənlər» hissəsinə diqqətlə baxdığımız zaman, günahların yayılmasını istəyən şəxslərin günahı yüngül sayanlar olduğu görünür. Çünki, günah yüngül sayılmasa və kiçildilməsə, başqalarına yaymaq istəyi də olmaz. Bu cür insanlar özlərini çox qorxunc bir uçurumdan aşağı atmaqdadırlar. Necə ki, İmam Əli (ə) də

---

[1] «Nurus-Səqələyn» cild 2, səh. 582.
[2] «Nur» surəsi, ayə 19.

günahların ən çirkini haqqında belə buyurur: «Ən çirkin və ən şiddətli günah, yüngül sayılan günahdır».[1]

**Nəticə:** Qeybətlə bağlı ayələrə diqqət etdiyimiz zaman qeybətin böyük günahlardan olduğunu görürük. «Hücurat» surəsində Allah-təala insanlara qeybəti qadağan edərək bunun qardaş əti yemək qədər iyrənc bir iş olduğunu vurğulamışdır.

Başqa bir ayədə də qeybət edərək günahların yayılmasına səbəb olan şəxslərə dünya və axirətdə şiddətli əzaba düçar olacaqları xəbər vermişdir. Nəticə etibarı ilə əzabla təhdid edilən hər növ günahın böyük günah olduğu və qeybətin də eyni xüsusiyyətlərə malik olduğu üçün «Qeybət böyük günahdır» deyirik.

[1] «Nəhcül-bəlağə» səh. 348.

# 3-CÜ HİSSƏ

## QEYBƏTLƏ BAĞLI HƏDİSLƏR

**1-ci hədis: Qeybət ribadan (sələmdən) daha pisdir.**

Həzrəti Muhəmməd (s) buyurur: «Faizlə əldə edilən bir dirhəm Allah yanında otuz altı zinadan daha pisdir. Faizdən daha pis olanı isə, müsəlmanın şəxsiyyətini alçaltmaqdır».[1]

Bu hədisdə faizlə verilən bir dirhəmin otuz altı zinadan daha pis, daha iyrənc olduğu bildirilir. Amma faizdən daha pis olanı isə, müsəlmanın qürurunu zədələyin şeylər etməkdir. Nəticə etibarı ilə qeybət etmək, faizdən daha pis və iyrənc bir davranışdır.

**2-ci hədis: Qeybət edən şəxs qəlbən iman gətirməmişdir.**

Həzrət Muhəmməd buyurmuşdur: «Ey dillə iman gətirib qəlblə imana gəlməyənlər! Müsəlmanların qeybətini etməyin. Onların gizli sirlərini və qüsurlarını araşdırmayın. Çünki, hər kəs qardaşının gizli eyblərini araşdırsa, Allah da onun qüsurlarını ortaya çıxarar, hətta evinin içində belə onu rüsvay edər».[2]

**3-cü hədis: Cəhənnəmə ilk daxil olanlar qeybət edənlərdir.**

---

[1] «Məhəccətul-bəyza» cild 5; «Vəsailüş-şiə» cild 12, səh. 432; «İyaul-Ülum» cild 3, səh. 142; «Mustədrək» cild 2, səh. 106; «Tənbihul-ğafilin» cild 1, səh. 105; «Biharul-ənvar» cild 75, səh. 222

[2] «Məhəccətul-bəyza» cild 5, səh. 252; «Təfsiri-Quranil-Əzim» cild 4, səh. 189; «Məcməu-Vərram» səh. 124.

Bir hadisdə belə qeyd olunmuşdur: «Allah Həzrət Musaya (ə) vəhy nazil edərək belə buyurdu: - Qeybət edib sonra tövbə edən şəxs cənnətə ən sonuncu daxil olan şəxsdir. Qeybət etməkdə israrlı olan şəxs isə, cəhənnəmə ilk daxil olan şəxsdir».[1]

Başqa bir hədisdə isə İmam Əli (ə) buyurur: «Müsəlman qardaşının qeybəti üçün addım atan və eyiblərini açıqlayan şəxsin qiyamət günündə ilk addım atacağı yer cəhənnəmdir».[2]

**4-cü hədis: Qeybət edəni şeytan belə qəbul etməz.**

İmam Sadiq (ə) buyurur: «Hər kim bir möminin üzünün suyunu tökmək və xalqın nəzərində onu dəyərdən salmaq üçün bir söz söylərsə, Allah da onu öz vilayətindən (qorumasından, himayəsindən) çıxarıb şeytanın himayəsinə göndərər. Hətta şeytan belə onu qəbul etməz».[3]

**5-ci hədis:Qeybət yaxşılıqları yox edər.**

İmam Sadiq (ə) buyurur: «Qeybət etmək müsəlmanlara haramdır. Atəşin odu yandırıb kül etdiyi kimi, qeybət də yaxşılıqları yaxıb kül edər».[4]

Sonradan deyəcəyimiz kimi, insan qeybət edərək qazanmış olduğu əməlləri yandırıb kül etmədədir. Atəş odunu yandırıb kül edər, özündən sonra kül və dumandan başqa bir şey qalmaz, qeybət də belədir.

---

[1] «Üsuli-kafi» cild 2, Əl-Qeybət babı, hədis 1; «Vəsailüş-şiə» cild 8, səh. 602; «Məcməu Vərram» səh. 124.
[2] «İqabul-Əmal» cild 48; «Məhəccətul-bəyza» cild 5, səh. 254.
[3] «Vəsailüş-şiə» cild 8, səh. 608, hədis 2.
[4] «Mustədrək» cild 2, səh. 106-107; «Mibhuş-şəriə» səh. 203.

Bu bənzətmə həqiqətin əslidir. Hətta həqiqət bundan da pisdir. Çünki, alovdan sonra toz və yaxud kül qalır. Amma qeybətdə yanıb kül olan yaxşı əməllərin əvəzinə əks tərəfin günahları yer alır. Buna görə də qeybətdə olan həsrət və üzüntü daha qorxunc və şiddətlidir.

**6-cı hədis: Qeybət əməlləri əks tərəfə daşıyır.**

İmam Sadiq (ə) buyurur: «Qiyamət günü bir şəxsi Allahın hüzuruna gətirərlər. Gözləyər və sonra əlinə əməl dəftəri verilər. Diqqətlə baxar, amma yaxşılıqlarını görməz. Deyər: - Ey Rəbbim, bu mənim əməl dəftərim deyil, mən etdiyim savabları görmürəm.

Ona belə cavab verilər: «Sənin Rəbbin heç vaxt bir şeyi unutmaz. Başqalarının qeybətini etdiyin üçün yaxşılıqların əlindən çıxdı.

Daha sonra başqa birini götürürlər. Əməl dəftəri ona verilən zaman çoxlu itaət etdiyinin və savablara malik olduğunu görüb deyər: - Ey Rəbbim, bu mənim əməl dəftərim deyil. Mən bu qədər gözəl əməllərə sahib deyiləm.

Ona da belə deyilər: - Bir nəfər sənin qeybətini eşitmişdi. Buna görə də onun savabları sənin əməl dəftərinə qeyd edildi».[1]

**7-ci hədis: Merac hədisində qeybətçilər.**

Həzrət Muhəmməd (s) Meracla bağlı hədisində belə buyurur: «Meracda olduğum zaman bir qövmün yanından keçdim, onlar əlləri ilə üzlərini didirdilər. Cəbrayildən (ə)

[1] «Səvabul-Əmal və İqabuha» səh. 568; «İrşadul-Qulub» cild 1, səh. 116.

bunların kim olduqlarını soruşdum. Cəbrayil dedi: - Bunlar başqalarının qeybətini edərək sirlərini araya çıxaranlardır».[1]

**8-ci hədis:**

Həzrət Muhəmməd (s) buyurur: «Hər kim müsəlman kişi və ya qadının qeybətini edərsə, qeybəti edilən şəxs onu bağışlamadıqca, Allah da onun 40 gün namaz və orucunu qəbul etməz».[2]

Həzrət başqa bir hədisdə isə belə buyurur: «Kim müsəlman bir şəxsin qeybətini edərsə, orucu və dəstəmazı batil olar. Qiyamət günü gələndə ağzında leşdən daha pis bir qoxan bir iylə gələr və məhşərdəkilər bundan narahat olarlar. Bu şəxs tövbə etmədən öldüyü halda, şüphəsiz ki, Allahın haramlarını halal sayan biri kimi ölər».[3]

**9-cu hədis: Ən alçaq şəxs.**

Həzrət Muhəmməd (s) buyurmuşdur: «İnsanların ən alçağı, başqalarına həqarətlə baxandır».[4]

Göründüyü kimi bu hədisdə qeybət edən şəxsə insanların ən alçağı kimi baxılır. Çünki, həqarət və cılızlaşdırmağın ən pisi insaların eyiblərini yaymaqdır. Xüsusilə də, insanlar arasında hörmətə malik olan bir şəxs öz qüsurunun başqaları tərəfindən öyrənildiyini bildiyi zaman, hətta özünə qəsd edə bilər. Ona görə də, insanlara ölümü seçdirən günahları üzə vurmaq ən böyük xəyanətdir.

---

[1] «Məcməu Vərram», səh. 123.
[2] «Mustədrək» cild 2, səh. 106; «Biharul-ənvar» cild 75, səh. 258, «Cəmiul-Əxbar» səh. 171.
[3] «Vəsailüş-şiə» cild 8, səh. 599.
[4] «Biharul-ənvar» cild 75, səh. 142.

**10-cu hədis:**

Həzrət Muhəmməd (s) buyurur: «Qeybət etmənin müsəlmanın inancına verdiyi zərər, cüzamın insana verdiyi zərərdən daha böyükdür».[1]

**11-ci hədis: Qeybət edənin cəhənnəmdəki halı.**

Həzrəti Muhəmməd (s) belə buyurur: «Qeybətin mömin bir şəxsə etdiyi təsir, bıçağın ətə olan təsirindən daha artıqdır. Müsəlman bir qardaşının (qeybətini edərək) ətini yeyər, suyunu içər və paltarını geyərsə, Allaha da ona cəhənnəm atəşindən yedirər, Həmimdən[2] içirər və cəhənnəm atəşindən geyirər. Hər kim müsəlman qardaşı ilə (səbəbsiz yerə) düşmənçilik edərsə, Allah da onu (əməllərində) riya və təkəbbürə mübtəla edər. Hər kim İslam yolunda yeni bir qardaş əldə etsə, Allah da ona cənnətdə daş-qaşdan bir saray bağışlar».[3]

**12-ci hədis: Cəhənnəm leşi.**

Möminlərin əmiri Əli (ə) buyurur: «Qeybətdən çəkinin! Çünki qeybət, cəhənnəm itlərinin yeməyidir».

Sonra İmam sözünə davam edərək deyir: «Ey Nəufil Bukali! İnsanların qeybətlərini edərək ətlərini yeyən şəxs halalzadə olaraq dünyaya gəldiyini zənn edirsə, səhf düşünür!»[4]

---

[1] «Biharul-ənvar» cild 72, səh. 261.
[2] Cəhənnəm əhli üçün hazırlanan qaynar su.
[3] «Biharul-ənvar» cild 72, səh. 261.
[4] «Biharul-ənvar» cild 72, səh. 261.

**13-cü hədis: Qeybətin bərzəx aləmindəki yeri.**

İmam Sadiq (ə) buyurur: «Xəbərçilik (söz çatdırmaq), qeybət və yalançılıq qəbir əzabına səbəb olur».[1]

İnsanlar imtahan dünyasını arxada qoyduqdan sonra qazanmış olduqları əməllərin qarşılığını görmək üçün Allahın məhkəməsinə gətiriləcəklər. Ölümlə birlikdə anasından, atasından, həyat yoldaşından, övladlarından, dostlarından, mallarından və bütün arzularında ayrılaraq torpağa qarışan insan üçün ilk qürbət gecəsi onun üçün qurulacaq ilk məhkəmə ilə üz-üzə gəlməsi olacaq.

Bu məhkəmədə qorxunc və dəhşət verici vəziyyətlə gələn mələklərin suallarına verəcəyi cavablar onun vəziyyətini açıqlayacaqdır. O gecə, bəzi əməllər insanın əzabla müjdələnməsinə səbəb olacağı kimi, bəzi əməllər də bərzəx aləmindəki cənnətlə müjdələnməsinə səbəb olar.

Yuxarıda qeyd edilən hadisdə də qəbr əzabının şiddətinə səbəb olan üç böyük günah təkidlə vurğulanmışdı.

**14-cü hədis: Məsciddə qeybət**

Həzrət Muhamməd (s) buyurur: «Əgər hədəs meydana gəlməsə, məsciddə namazın vaxtını gözləmək ibadət sayılır».

Soruşdular: «Ya Rəsulallah (s), Hədəsdən məqsəd nədir?»

Həzrət cavab verdi: - Qeybət etmək».[2]

---

[1] «Biharul-ənvar» cild 72, səh. 261.

[2] «Üsuli-kafi» cild 2, səh. 255; «Biharul-ənvar» cild 72, səh. 213.

**15-ci hədis: Acizin səyi**

Həzrət Əli (ə) buyurur: «Qeybət acizlərin səyidir».[1]

Cəmiyyətdə aciz insanlar haqqlarını ağıl və məntiqdən xaric olan hərəkətlərlə axtarırlar.

Həqarətə uğrayan bir şəxs insani yollara müraciət edərək əks tərəflə görüşməli, arada olan inciklikləri aradan aparmalı, yaxud ağsaqqalara və elm sahiblərinə müraciət edərək məsələnin həllinə qail olmalıdırlar. Bunun əksinə olaraq əks tərəfin qeybətini edərək problemi daha da qəlizləşdirmək və alovlandırmaq aciz insanların işidir.

Bunun üçün də, İmam Əli (ə) qeyd olunan hadisdə qeybət etməyi aciz və zavallı insanların səyi kimi dəyərləndirir.

**16-cı hədis: Şeytanla şəriklik**

İmam Sadiq (ə) buyurur: «Aralarında heç bir düşmənçilik olmadan mömin qardaşının qeybətini edən kəsin nütfəsinə şeytan da şərikdir».

İnsanlar bəzi əməlləri tərk etdiklərinə görə işlərində şeytanla şərik olarlar. Məsələn, cinsi əlaqəyə girməzdən əvvəl «Bismillah» deyilməlidir. Əks təqdirdə, şeytan bu nütfəyə şərik olar. Yuxarıdakı hədisdə də buna işarə olunmuşdur.

**17-ci hədis: Qeybət zinadan da çirkindir**

Həzrət Muhəmməd (s) buyurur: «Qeybət, zinadan da pisdir».

---

[1] «Qürərul-Hikəm»; «Nəchül-bəlağə».

Hədisin davamında Həzrət (s) bunu səbəbini açıqlayır: «Zina edən tövbə etdikdə, Allah-təala onu bağışlar, qeybətdə isə əks tərəf əfv etmədikcə, tövbəsi qəbul edilməz».[1]

**18-ci hədis: İçində ət olan ev**

İmam Rza (ə) bir gün «Allah ət olan evi düşmən bilir» - buyurdu. Ona: «Ey İmam biz əti sevir və evimizdə saxlayırıq» – deyilən zaman İmam belə cavab verdi: «Ət olan evdən məqsəd, qeybətlə insanların əti yeyildiyi evdir».[2]

---

[1] «Vəsailüş-şiə» cild 12, səh. 280.
[2] «Vəsailüş-şiə» cild 12, səh. 280.

## NƏCHÜL-BƏLAĞƏDƏ QEYBƏT

«Layiqlisi budur ki, günahdan uzaq duranlar və Allahın günahlardan pəhriz saxlamaq nemətini bəxş etdiyi insanlar günahkarlarla və Allahın, peyğəmbərin əmrlərinə boyun əyməyənlərə mehriban olsunlar. Layiqlisi budur ki, (Allah onlara nemət bəxş etdiyinə və günahlardan uzaq qalmaq uğuru nəsib etdiyinə görə) onlara şükranlıq və təşəkkür hakim kəsilsin (başqalarından danışmağa onlara macal verməsin), günahkarların qeybətini etməyə mane olsun.

(Günahdan uzaq olanlara və günahsızlara başqasının qeybətini etmək yaraşmadığı bir halda) öz qardaşının (dindaşının) qeybətini edib onu törətdiyi günaha görə qınayanın halı necə olar?! (Belə bir günahkar şəxsin özü qeybətə daha layiq olduğu halda) Allahın onun qardaşını etdiyi günahdan daha böyük olan öz günahlarının üstünü örtdüyünü xatırlamırmı? Onu törətdiyi günaha görə necə qınaya bilər ki, özü də ona bənzərini etmişdir. Eynilə həmin günahı etməsə də başqa tərzdə qardaşının günahından daha böyük günah olan Allaha itaətsizlik etmişdir (başqa bir günaha batmışdır). And olsun Allaha, böyük günaha batmamış, yalnız kiçik günahla itaətsizlik göstərmiş olsa belə, camaatda eyb axtarmağı və onlar barədə pis danışmağı olan cürəti (törətmədiyi böyük günahdan) daha böyükdür». (Sonra, İmam əleyhissalam öyüd-nəsihət olaraq buyurur:)

«Ey Allah bəndəsi! Törətdiyi günaha görə heç kimsənin eybini axtarıb, haqqında pis danışmağa tələsmə ki, bəlkə o (batdığı günaha görə tövbə edər) bağışlanar. Öz nəfsində kiçik günahdan arxayın düşüb, rahatlanma (ona həqarət və

kiçiklik gözü ilə baxma) ki, bəlkə onun nəticəsində əzaba düçar olarsan. Özündən qeyrisinin eybini və pisliyini bilən sizlərdən hər birisi öz eyiblərinə görə (başqalarında eyb axtarıb, tənə vurmaqdan) çəkinməli, baçqasının mübtəla olduğu günahdan çəkindiyinə görə şükrlə məşğul olmalıdır. (Bu nemətə görə şükr etmək başqasının eyibini deməyə ona macal verməməlidir.)»[1]

**İmam Əli (ə) başqa bir xütbəsində belə buyurur:**

«Ey camaat! Hər kim öz qardaşını (dindaşını) tanıyıb, onun dinində (etiqadında) möhkəm və sözləri, əməlləri ilə doğru yolda olduğunu bilsə, camaatın onun barəsində sözlərinə (qeybətinə) qulaq asmamalıdır. Agah olun! (Sözün vurduğu ziyan oxun ziyanından daha ağır və çox olur.) Çünki bəzən kamandan ox atan oxçunun oxu boşa çıxır və (ancaq) söz (yalan olsa belə) təsirsiz qalmır, onun batili və yalanı aradan gedir. (Bununla belə, onun günahı deyənin boynunda qalır.) Çünki Allah (deyilənləri) eşidən və şahiddir. Bilin ki haqla batil arasında dörd barmaqdan (bu qədər məsafədən) başqa bir şey yoxdur.

Bu sözlərinin mənasını İmam əleyhis-salamdan soruşduqda o Həzrət (bunun cavabında) barmaqlarını bir-birinə birləşdirərək qulaqları ilə gözləri arasına qoyaraq buyurmuşdur: «Batil və səhv «eşitmişəm» dediklərin, haqq və doğru isə «görmüşəm» söylədiklərindir».[2]

---

[1] «Nəchül-bəlağə», 140-cı xütbə.
[2] «Nəchül-bəlağə», 141-ci xütbə.

## QEYBƏTİN FƏLSƏFƏSİ

Qurani-Kərim ayələrini və hədisləri nəzərdən keçirdikdən sonra qeybətin fəlsəfəsini dərk etmək və fikirləşmək çox asan olacaqdır.

Yaxşı düşünə bilsək, qeybətin cəmiyyətimizdə olmamasını lazım bilən səbəbləri belə sıralaya bilərik:

1 - Qeybət, insanların şəxsiyyətinə terror etmək deməkdir. Bir çox insanlar canlarını, mallarını və bütün onun üçün dəyərli olan şeyləri cəmiyyət içində qazanmış olduqları qürur və hörmətə fəda edirlər. Qeybətin haram olması, insanların qazandıqları hörmətin yox olmasına əngəlləyir.

2 - Qeybət, cəmiyyətdə insanların bir-birinə güvənini yox edər.

3 - Qeybətin hakim olduğu yerlərdə birlik, vəhdət, hörmət və insanların bir-birinə yardım etməsi sağlam təməllər üzərində olması.

4 - İslam dini vəhdətə çox önəm verir. Buna görə də vəhdətin güclənməsinə səbəb olan hər bir şeyi İslam sevir. Bunun əksi olan, vəhdəti dağıdan zəiflədən hər bir şeyi qınayır. Qeybət isə, vəhdət üçün son dərəcə böyük bir təhlükədir.

5 - Qeybət, qəlblərə kin və nifrət toxumları səpər, vuruşma və cinayətlərə səbəb olar.

6 - Qeybət, günahların kiçildilməsinə səbəb olar. Belə olan halda insanlar günahı normal bir davranış kimi görərlər. Televizor proqramları, İslami əsaslarla örtünməyən qadınlar və başqaları bu mövzuya misal kimi göstərilə bilər.

Əvvəllər qınaq obyektinə çevrilən televizor proqramları indi əyləncə məqsədi ilə izlənilirsə və bəzi filmləri qınayanların özləri artıq xalq tərəfindən qınanılırsa, əlbəttə ki, bunların səbəbi günahların yüngül sayılmasıdır.

Hər halda qeybət bu səbəblər üçün zəminə hazırlayır. Yəni, qeybətin çirkin üzü yaddan çıxır və adi bir söhbət kimi qəbul edilir. Allah-təala bu mövzuya xüsusi bir önəm vermiş, bir çox günahın üzərini də «insanları qorumaq üçün» örtmüşdür.

İslam hüququna görə bir zina hadisəsinin isbatının nə qədər çətin olduğu həqiqətən də düşündürücüdür. Hətta bu çətin şərtlər altında sübut olunan günahın cəza səhifəsinə gəldikdə, dörd şahiddən hər hansı biri gec gələr və ya şahidlərin verdiyi izahatlarda fərqli ifadələr deyilərsə, şəri məhkəmə bu şahidləri cəzalandırar. Buna bənzər çox misal göstərmək olar.

Bu hikmətləri nəzərdən keçirdikdən sonra, qeybətin çirkinliyini və iç üzünü daha aydın anlamış oluruq. Nəticə etibarı ilə deyə bilərik ki, cəmiyyətdə günahların adi davranış kimi görsədən şeytan qeybətin ən uyğun tələ kimi istifadə edir. Cəmiyyətdə qeybətin qarşısı kəsilərsə, çirkinliklər çirkin göründüyü kimi gözəlliklər də gözəl görünəcəkdir.

# 4-CÜ HİSSƏ

## QEYBƏT DİNLƏMƏYİN HÖKMÜ

Qeybət etmək haram olduğu kimi qeybəti dinləmək də haramdır. Hətta qeybəti dinləmək qeybətdən daha qorxunc, cəzası isə daha ağırdır.

Cəmiyyətdə başqalarının qüsurlarını dinləməkdən zövq alanlar olmasa, əlbəttə ki, qeybət edəndə olmaz. Hələ qeybət edənin dediyi sözləri eşidəndə - Əhsən, çox maraqlıdır, sonra nə oldu? - kimi sözlərlə onu coşdurmaq və daha artıq qeybət etməsinə yol açmaq, qeybəti dinləyəni günahını qeybət edənin günahından çox, cəzasını isə ağır edər.

Müsəlmanın qardaşına ən çox ehtiyac duyduğu yer onun qeybəti edildiyi yerdir. Belə olan halda qeybəti edilən şəxs müdafiə olunmalı və açılan qüsurun üstü örtülməlidir. Bunun əvəzinə qeybət edən şəxsi dinləmək və zülmünə dəstək olmaq, səndən yardım istəyən şəxsi üzü üstə buraxmaq deməkdir.

Fəqihlər, qeybəti dinləməyin haram olduğu mövzusunda müttəfiqdirlər. Bunun da səbəbi bu mövzu haqqında hədislərin çoxluğudur.

İndi isə bu hədislərdən bəzisini gözdən keçirək:

Həzrət Muhəmməd (s) buyurur: «Qeybət dinləyən qeybət edən iki nəfərdən biridir».[1]

---

[1] «Mustədrək», Kitabul-Həcc bab 136; «Biharul-ənvar» cild 75, səh. 226; «İhyaul-Ülum» cild 3, səh. 128; «Təbihul-Xəvatir» cild 1, səh. 108; «Ğürərul-Hikəm» səh. 221.

İmam Əli (ə) də bir hədisində belə buyurur: «Qeybəti dinləyən qeybət edənlə ortaqdır».[1]

Bu hədisə isnad verərək bunu deyə bilərik ki, qeybət edən bir şəxs neçə qardaşının cəsədini yemiş sayılırsa, qeybət dinləyən də eyni çirkin işi etmiş bilinməklə bərabər həm bədənini həm də ruhunu qeybətlə zəhərləyərək Allahın rəhməti əvəzinə qəzəbini qazanmaqdadır.

İmam (ə) bir başqa hədisində belə buyurur: «Qeybəti dinləyən, qeybəti edən kimidir».[2]

Bu hədisə isnad edərək qeybət edənin etdiyi günahla qeybəti dinləyənin etdiyi günahın eyni olduğunu deyə bilərik. Deməк, qeybət zinadan çirkin olduğuna görə qeybəti dinləmək də zinadan çirkin bir əməldir. Buna görə, qeybət edənin yaxşı əməlləri əks tərəfə keçdiyi üçün, qeybəti dinləyənin də əməlləri əks tərəfə keçər və ya hədər olar.

Bir başqa hədisdə də İman (ə) bu mövzunu daha aydın olaraq açıqlayıb belə buyurur: «Qardaşını müdafiə etmədən qeybətini dinləyən şəxsin günahı qeybət edənin etdiyi günahından yetmiş dəfə artıqdır».[3]

Qeybətin haram olduğunu bildiyi halda dinləyən şəxslərin iman və cəsarətlərindən şübhələnmək lazımdır. Allahın haram bildiyi sözləri dinləyən və bunları özünə halal edən şəxsdə imandan əsər belə qalmaz. Belə insanlarda cəsarət də olmaz. Bir zalımın zülmünü görüb ona mane olmaq əvəzinə kömək edən şəxsdə cəsarət ola bilərmi? Amma bunun əvəzində qeybət edənin qabağını kəssə, həm

---

[1] «Qürərul-Hikəm» səh. 221.
[2] «Qürərul-Hikəm» səh. 221.
[3] «Vəsailüş-şiə» cild 8, səh. 600; «Mən la yəhzəruhul-fəqih» cild 2, səh. 195-197; «İqabul-Əmal» səh. 448.

qeybət edən, həm dinləyən, həm də qeybəti edilən şəxs xilas olar. Əlbəttə ki, belə bir şəxs Allah yanında sevimli bir bəndə olar.

Bu mövzuda Həzrət Muhəmməd (s) buyurur: «Hər kim mömin bir qardaşının onun yanında hörmətdən salındığını (qeybətini edildiyini) görüb müdafiə edərsə, Allah da qiyamət günündə onun hörmətini qoruyar».[1]

Başqa bir rəvayətdə bu hədis belə qeyd olunmuşdur: «Allah da dünya və axirətdə o şəxsin hörmətini qoruyar».[2]

Rəsuli-Əkrəm (s) buyurur: «Hər kim qardaşının eybini örtərsə (qeybəti edildiyi zaman onu müdafiə edərsə), Allah da qiyamət günündə ona köməklik etməsi üçün bir mələyi vəzifələndirər».[3]

Həzrəti Muhəmməd (s) bir başqa hədisində belə buyurur: «Hər kim cəmiyyətdə din qardaşının qeybəti ediləndə bu qeybəti rədd edərsə, Allah da dünya və axirətdə bütün şərr qapılarını ondan uzaqlaşdırar. Amma gücü çatdığı halda din qardaşını müdafiə etməzsə, onun günahı qeybət edənin günahından yetmiş dəfə artıq olar».[4]

İmam Sadiq bir hədisində qeybəti dinləyən haqqında belə buyurmuşdur: «Qeybət edən kafir, dinləyən və razı olan isə müşrikdir».[5]

Əbuzərr Həzrət Muhəmməddən (s) belə rəvayət edir: «Kimin yanında möminin qardaşının qeybəti edildiyi zaman qeybəti edilənə yardım edir və qeybətin qabağını alarsa,

---

[1] «Meracus-səadət» səh. 431.
[2] «Meracus-səadət» səh. 431.
[3] «Meracus-səadət» səh. 431.
[4] «Vəsailüş-şiə» cild 8, səh. 600; «Mən la yəhzəruhul-fəqih» cild 2, səh. 195-197; «İqabul-Əmal» səh. 448.
[5] «Mustədrəkul-vəsail» cild 9, səh. 133;

Allah da dünya və axirətdə ona yardım edər. Gücü çatdığı halda yardım etməzsə, o zaman Allah da onu dünya və axirətdə rəzil edər».[1]

Görüldüyü kimi hədisdə qeybətin qabağını kəsməyin lazım olduğu vurğulanır. Bəs bundan məqsəd nədir?

Deyilən sözlərin qeybət olunduğu açıqlanandan sonra qeybət edən əvvəlcə şirin dillə başa salınmalıdır. Məsələn, qeybət edən şəxsə «Sənin kimi möminə belə sözləri yaraşdırmıram. Çünki, belə sözlər Allahı qəzəbləndirər». - deyilməlidir.

Əgər qarşı tərəf qeybət etməkdə israr edərsə, o zaman qeybəti edilən tərəf müdafiyə olunmalıdır. Məsələn «Heç kəs məsum deyil, belə eyiblər hər kəsdə ola bilər. Amma onu sizin qınamanız çox böyük günahdır. Onun qeybətini etməkdənsə bu xətası üçün onu Allahdan bağışlanmasını diləyək». - deyilməlidir. Əks təqqirdə, edilən günaha dinləyici də şərik olur. Həzrəti Muhamməd (s) bu mövzu ilə əlaqədər olaraq belə buyurur: «Qeybət qarşısında susan qeybət edənlər ortaqdır».[2]

## Qeybət edilən yerdə nə etməliyik

Qeybət edilən yerlərdə edə bilməli olduğumuzları belə sıralaya bilərik:

1 - Deyilənlər qarşısında susmamalı, dərhal qarşı tərəfə bunun pis iş olduğunu bildirməliyik.

---

[1] «Vəsailüş-şiə» cild 8, səh. 608; «Mən la yəhzəruhul-fəqih» cild 2, səh. 341; «Əl-Məcalis» cild 2, səh. 341.

[2] «Məcməu-vərram» səh. 127.

2 - Bu, fayda vermədiyi təqdirdə deyilənləri inkar etməliyik.

3 - Deyilənləri yarıda kəsib söhbəti deyişməliyik.

4 - Mümkün olan təqdirdə dərhal oranı tərk etməliyik.

5 - Bunların heç biri mümkün olmasa, ən azı qəlbimizlə bu işin çox pis əməl olduğunu düşünməli və qeybət edəni qınamalıyıq.

Belə nəticə alıb deyə bilərik ki, qeybət etmək nə qədər iyrənc, çirkin, pis davranış olsa da, qeybət dinləmək ondan da pis və çirkin davranışdır. Yuxarıda qeyd etdiklərimiz hədislərdə də bildirilir ki, qeybət dinləməyin günahı qeybət etməkdən yetmiş dəfə artıqdır.

Əlbəttdə ki, qeybəti dinləyərlər olmasa, qeybət edənlər də olmaz. Çünki, qeybət dinlənərək yayılır. Bütün bunlar olmadığı təqdirdə, onlar günah danışmaq əvəzinə faydalı şeylər barədə danışacaqlar.

# 5-Cİ HİSSƏ

## QEYBƏTİN DÜNYA VƏ AXİRƏTƏ TƏSİRİ

**Qeybətin dünyadakı təsirləri**

Qeybətin dünyada olan təsirlərini ayə və hədislərdən faydalanaraq belə sıralaya bilərik:

**1 - Qeybət edən Allaha qarşı çıxmışdır:**

Qeybət edən şəxs, başqalarının sirrini açdığı üçün Allaha qarşı çıxmış sayılır. Necə ki, Allahın Rəsulu da (s) bu mövzuya işarə etmişdir:

Rəvayətə görə Həzrət Məhəmməd (s) Allahdan soruşur:
- Ey Rəbbim! Möminlər sənin yanında necədirlər?

Allah-təala da cavabda belə buyurur: - Ey Muhamməd (s)! Kim mənim dostuma xəyanət edərsə (qeybətin edərsə) həqiqətdə mənə qarşı çıxmışdır. Mən dostlarımın köməyinə hər kəsdən daha tez yetişərəm.[1]

Bu hədisə nəzər etdiyimizdə, qeybət edən bir şəxsin hər şeyin yaradıcısı olan Allah-təala ilə dost olması lazım olduğu halda düşmən olması aydın olur. Allaha düşmən olmaq isə bütün ümid qapılarının bağlanması deməkdir.

İnsan Allah dostunu rüsvay etdiyi üçün Allah-təala da onu mütləq rəzil edəcəkdir. Allah-təalanın rüsvay etdiyi şəxsin eybini isə Allah-təaladan başqa heç kim örtə bilməz.

---

[1] «Üsuli-kafi» cild 2, səh. 352.

**2 - Qeybət ömrün bərəkətini yox edir:**

Bəzi hədislərdə qeybətin yaxşılıqları yox etdiyi bildirilir. Allahın Rəsulu da (s) bir hədisində bu mövzuya işarə edərək buyurmuşdur: «Qeybət yaxşılıqları alovun odunu yox etməsindən daha tez yox edər».[1]

Digər tərəfdən, insanın ömrünə bərəkət verən şeylər, qazanmış olduğu saleh əməllər və yaxşılıqlardır. İnsan qeybət edərək əməllərini yox etdiyi üçün ömrünün bərəkətini də itirir.

**3 - Qeybət malın bərəkətini yox edər:**

Mal zəkat və xüms verməklə təmizlənir, bərəkətlənir. Allah Qurani-Kərimdə bir çox yerdə zəkatı dinin dirəyi olan namazla birlikdə qeyd etmişdir. Bu da zəkatın nə qədər lazımlı olduğunu bildirməklə, eyni zamanda Allah yanında namazın qəbul olması üçün mütləq zəkatın verilməsi lazım gəldiyini vurğulayır. Başqa bir tərəfdən qeybət, əməlləri alov kimi yox etdiyi üçün bu əməllərin əsərlərini də yox edir. Əməllərin əsərləri yox olduğu vaxt insanın nə ömründə, nə də malında bərəkət qalar. Bunun üçün də belə deyə bilərik: «Qeybət malın bərəkətini yox edər».

**4-Qeybət insanı öz ailəsinə düşmən edər:**

Bəzən ata və analar uşağlarının eyblərini dərdləşmək məqsədilə başqalarına deyər və yaxud şikayət edərlər. Edilən dedi-qodular ailənin digər fərdlərinə çatdıqda həngamə qopar.

Bu cür ailələrdə ailə fərdləri arasında inamsızlıq yaranar və bunun nəticəsində bəzi problemlər baş qaldırar. Eyni

---

[1] «Üsuli-kafi» cild 2, səh. 352.

xətalar təkrarlandığı zaman, ailə daxilində düşmənçiliklər, bir-birindən soyumalar, ayrılma, evdən qaçma və sair bu kimi problemlər araya çıxır.

Bütün bunların hayata keçməsinə səbəb olan şeyin qeybət olduğunu açıq-aydın görürük. Buna görə də belə deyə bilərik: «Qeybət, ailədə düşmənçilik, kin və nifrət yaradır».

**5-Qeybət ən yaxın dostu düşmən edər:**

Əsl dost, dostunun yanında olub olmamasından asılı olmayaraq köməyinə qaçan, dərdini bölüşən və kürəyindəki yükü yüngülləşdirən şəxsdir. İnsanın qabağına bir çətinlik çıxdığı zaman hər kəsdən əvvəl dostunu axtarar. Heç vaxt dostunun onun kürəyindən vuracağını düşünməz. Çünki, insanı arxasından ancaq namərd vura bilər, ona isə dost deyilməz.

İnsanın köməyə ən çox ehtiyacı duyduğu anlarda biri də qeybətin edildiyi yerdir. Çünki, insan bu zaman müdafiəsiz qalar. Necəki, Qurani-Kərimin bu halda olan şəxsləri cəsədə bənzədir.

Hər hansı bir ehtiyac söz mövzusu olmadığı vaxtlarda dostunun yanından ayrılmayan və dara düşdüyü zaman ortalıqda tapılmayan dostlar, əlbəttə ki, mənfəətcil dost sayılmır. Necəki, dostunun eyb və qüsurlarını açıb qeybətini edən şəxsin onun öz dostu olduğu bilindikdə dostluğun yerini düşmənçilik tutar. Nəticə etibarı ilə belə deyə bilərik: «Qeybət, çox dərin dostluqları belə düşmənçiliyə çevirir».

**6-Qeybət boşanmalara səbəb olur:**

Hər ailədə az da olsa problemlərin olması adi haldır. Çünki, problemsiz bir ailəni göz önünə götürmək çətindir. İnsanın qüsursuz olması üçün məsum olması lazımdır. Az və ya çox olan problemlər uşaqlar, qonşular, qohum-əqrəba və sairlərin çatdıqda, kiçik problemlər belə böyük problemlərə çevrilir. Ailə daxili başadüşülməzliklər ailə daxilində qalarsa, zaman ötdükcə aradan gedə bilər və hətta inciklikler xoşbəxtçiliyə çevrilər. Amma qeybət mövzusunda hər hansı bir sirr saxlamaq olmasa və bunu haram bilməyən bir ailədə, yaşanan problemləri başqalarına söylənildiyi zaman bəzən yersiz, bəzən də həddini aşan müdaxilələr üzündən birlikdə yaşamaq mümkün olmur və hətta vəziyyət boşanmaya çatır.

Burda dostumun başına gələn bir əhvalatı oxucularla bölüşmək istəyirəm. Dostum belə deyir: «Tanıdığım bir ailənin probleminə müdaxilə etməyim lazım gəlmişdi. Problemin əslini bilmək üçün tərəfləri bir-bir dinlədim. Hər iki tərəf tezliklə boşanmaq istəyirdi. Tərəfləri diqqətlə dinlədikdən sonra bütün problemlərin qeybətdən qaynaqlandığını başa düşdüm. Kişiyə dedim: - Siz qeybət mövzusuna riayət edirsinizmi?

Mənfi cavab aldıqda dedim: - Siz qeybət mövzusuna riayət edəcəyinə aid mənə söz verin. İnanınki, bütün problemlər öz-özlüyündə həllini tapacaqdır.

Elə də oldu. İndi bu cütlük, xoşbəxt halda yaşayırlar».

Buradan da aydın olur ki: «Qeybət, ailələrin dağılmasına səbəb olur».

**7 - Qeybət aqibəti pis edir:**

İmam Xomeyni «Qırx hədis şərhi» adlı qiymətli əsərində belə deyir: «Mömin bir şəxsin qüsurlarını aşkara çıxararaq onun hörmətini zədələmək, pis aqibətə səbəb ola bilər. Çünki, bu əməllər insanda mələkə halına gələrsə, nəfsdə bəzi təsirlər buraxır. Məsələn, qeybəti edilən şəxsə kinli olmaq kimi...

Bu get-gedə çoxalır. Xüsusilədə ölüm zamanında gözdən pərdə qalxanda, mələkut aləmi görüləndə və Allahın ona lütf və bəxşişlərini müşahidə etdiyində, bu dəfə də Allaha qarşı kin və nifrət oyanır. Nəticədə, belə insanlar Allaha, mələklərinə və peyğəmbərlərə düşmən olaraq alçaq bir vəziyyətdə bu aləmdən köçürürlər».[1]

**8-Qeybət riyaya səbəb olur:**

Bu mövzu hədislər bölümündə qeyd olunsa da, həmin hədisi nəzərinizə yenidən çatdırırıq: Həzrət Muhəmməd (s) belə buyurur: «Qeybətin, mömin bir şəxsə etdiyi təsir, bıçağın ətə olan təsirindən daha artıqdır. Müsəlman bir qardaşının (qeybətini edərək) ətini yeyər, suyunu içər və paltarını geyərsə, Allah da ona cəhənnəm atəşindən yedirər, Həmimdən içirər və cəhənnəm atəçindən geyirər. Hər kim müsəlman qardaşı ilə (səbəbsiz) düşmənçilik edərsə, Allah da onu (əməllərində) riya və təkəbbürə mütəla edər. Hər kim İslam yolunda yeni bir qardaş əldə etsə, Allah da ona cənnətdə qaş-daşdan saray bağışlar».[2]

---

[1] «Qırx hədis şərhi» səh. 312, hədis 19.
[2] «Biharul-ənvar» cild-72, səh. 261.

**9-Qeybət edən dünyada rüsvay olar:**

Bu mövzu barəsində Həzrət Muhəmməd (s) bir hədəsində belə buyurur: «Müsəlmanların qeybətini etməyin, onların sirrlərini açmayın. Çünki, kim qardaşının gizli sirrlərini araşdırarsa, Allah da onun sirrlərini araya çıxarar. Hətta evinin içində belə onu rüsvay edər».[1]

**10-Qeybət insanı dünyada ən alçaq vəziyyətə salar:**

Həzrət Muhəmməd (s) buyurur: «İnsanların ən alçağı başqalarına həqarət edəndir (qeybət edəndir)»[2]

**11-Acizlər qeybətləriylə tanınar:**

Həzrət Əli (ə) buyurur: «Qeybət acizlərin səyidir».[3]

---

[1] «Biharul-ənvar» cild 75, səh. 222.
[2] «Biharul-ənvar» cild 75, səh. 222.
[3] «Nəhcül-bəlağə» hikmət, səh. 461.

## Qeybətin axirətə təsirləri

**1-Qeybət, qəbr əzabını artırar:**

Qeybət elə bir qorxunc günahdır ki, dünyada təsirləri olduğu kimi ölümdən sonra başlayan və həqiqi evimiz olan ölümdən sonrakı yaşamımızdakı təsirlərindən də azad olmaq mümkün deyildir.

İlk yetişəcəyimiz gözləmə salonunda, yəni Bərzəx aləmində qeybət əhli, dünyada olduqları zaman etdikləri qeybətə görə şiddətli qəbr əzbına düçar olacaqlar.[1]

**2-Qeybət edən Allahın qəzəbinə uğrar:**

Qeybət etmək şəxsiyyiəti zədələdiyi və hörmətdən saldığı üçün, həmin şəxs Allahın qəzəbi ilə üz-üzə qalar.

«Nur» surəsinin 19-cu ayəsində günahları yayan (qeybət edən) şəxslər üçün dünyada və axirət şiddətli əzablar vəd edilmişdir. Axirətdə əzaba düçar olan şəxslər, Allahın qəzəbinə uğrayan kimsələrdir.

İmam Əli (ə) Kumeyl duasında bu mövzunu heyratamiz bir təbirlə bəyan etmişdir: «İlahi! Bu əzab sənin qəzəbinə görədir...»

Beləcə, Allahın əzbına yetişən kimsə Allahın qəzəbinə də düçar olur. Bunun üçün, qeybət edən də qiyamət günü Allahın əzab və qəzəbinə düçar olacaqlar.

**3-Qeybət edən şəxs şəfaətdən məhrumdur:**

Qeybət etmək Peyğəmbərimizin (s) düşmənlərinin xüsusiyyətlərindəndir. Çünki, Qurani-Kərimdə bu,

[1] «Biharul-ənvar» cild 72, səh. 260.

«Həmmaz» deyə qeyd olunmuşdur. Həmmaz da öz növbətində Peygəmbərimizin (s) düşmənlərinin xüsusiyyətləri arasında qeyd olunmuşdur.

O halda Peygəmbərimizin (s) düşməni olan şəxs qiyamət gunu Allah və Rəsulunun (s) şəfaətinə nail olmaz!!!

**4-Qeybət edənlər qiyamət gunu öz ətlərini yeyəcəklər.**

Qeybət edənlər qiyamət günü yemək kimi öz ətlərini yeyəcək və üzlərini didişdirəcəklər. Bu mövzu Merac hədisində qeyd olunmuşdur.[1]

**5-Qeybət edən şəxslər cəhənnəmə hər kəsdən əvvəl daxil olarlar.**[2]

**6-Qeybət edənlər yaxşı əməllərini əks tərəfə verər, onun pis əməllərini isə özlərinə götürərlər.**[3]

**7-Qeybət əhlinin cəhənnəmdə ərzaqları atəşdir.**

**8-Qeybət əhlinin cəhənnəmdəki içəcəkləri qaynar sudur.**

**9-Qeybət əhlinin cəhənnəmdəki libası atəşdən olan köynəkdir.**[4]

---

[1] «Nurus-Səqəleyn» cild 5, səh. 667.
[2] «Üsuli-kafi» cild 2, hədis 1.
[3] «Savabul-Əmal və iqabuhu» səh. 568.
[4] «Biharul-ənvar» cild 72, səh. 261.

**10-Qeybət əhli cəhənnəm leşidir.**[1]

**11-Qeybət əhli qiyamət günündə namaz və orucundan fayda görməz:**

Qeybət edənlərin namaz və orucları qəbul olmadığı üçün qiyamət günündə onlar bu ibadətlərin savablarından məhrum olacaqlar.[2]

---

[1] «Biharul-ənvar» cild 72, səh. 261.
[2] «Camiul-Əxbar» səh. 171.

# 6-CI HİSSƏ

## QEYBƏTDƏN QAÇMAĞIN ƏHƏMİYYƏTİ

Qeybətin dünya və axirətdə necə zərərləri bilindikdən sonra qeybətdən qaçmağın gərəkli olması daha çox əhəmiyyət qazanacaqdır. Bundan faydalana bilmək üçün bu bölümdə qeybətdən qaçmağın Allah yanında dəyərini, dünya və axirətdə necə mükafatları olduğunu da açıqlamaq istəyirik.

İmam Sadiq (ə) bu mövzu haqqında belə buyurur: «Allahın haramından çəkinmək, möminlərə əziyyət verməmək və qeybətdən uzaq durmaq qədər faydalı bir təqva yoxdur».[1]

Göründüyü kimi, təqvanın ən üst mərtəbəsinə yetişmək üçün qət edilməsi lazım olan ən qısa və önəmli yollardan biri də qeybəti tərk etmək, yaxud da bunu əxlaq halına gətirməkdir. Belə bir kimsənin təqvası, digər təqvalardan çox ucadır.

Necəki İmam Zeynəlabidin (ə) bu mövzunun önəmini belə açıqlayır: «Kim nəfsini insanların qüsurunu söyləməkdən uzaq tutarsa, Allah da qiyamət günü onun günahlarına göz yumar».[2]

Qeybət imanla əlaqəli bir işdir. Rəsuli-Əkrəm (s) bu mövzu haqqında belə buyurur: «İmanı sabit olmayanın qəlbi sabit olmaz, qəlbi sabit olmayanın isə dili də sabit olmaz. O halda kim Allah ilə mülaqat etək istəyirsə, əllərini

---

[1] «Üsuli-kafi» cild 8, səh. 44, hədis 338.
[2] «Üsuli-kafi» cild 2, səh. 305, hədis 14.

müsəlmanların qanına bulaşdırmasın, dilini də başqaların qüsurunu söyləməkdən uzaq saxlasın».[1]

Yenə Həzrət Muhəmməd (s) belə buyurur: «Dilinə hakim ol! Çünki dil, özün üçün verdiyin sədəqədir».[2]

Üzvlərimizin hər birinin zəkat və sədəqəsi vardır. Dilimizin sədəqəsi isə qeybətdən uzaq durmaqdır.

Oruc tutan şəxs hədislərdə tərif olunmuşdur. Hətta oruc tutan şəxsin yuxusunun belə onun ibadət sayıldığı bildirilir. Bunun üçün onun qeybət etməməsi şərtdir. Həzrət Muhəmməd (s) buyurur: «Oruc tutan şəxs, bir müsəlmanın qeybətini etmədiyi zaman yatağında yatsa belə, ibadət halındadır».[3]

Məsciddə dayanmaq ibadət sayılır. Onun da şərtlərindən biri qeybət etməmək olaraq bildirilmişdir. Bu mövzu haqqında belə bir rəvayəti nəzərinizə yetirək: «Bir gün Həzrət Muhəmməd (s) belə buyurdu: - Əgər bir hədəs meydana gəlməsə, o zaman məsciddə namazın vaxtını gözləmək ibadətdir.

- Ya Rəsulallah! Hədəsdən məqsəd nədir?

- Qeybət etmək».[4]

Bəzi əməllər nafilə namazlarını qılmaqdan qat-qat üstündür. Bu əməllərdən biri də qeybətdən qaçmaqdır. Bu mövzu haqqında da bu hədis qeyd olunmuşdur: «Qeybəti tərk etmək, Allah yanında on min nafilə namazından əfzəldir».[5]

---

[1] «Biharul-ənvar» cild 72, səh. 262, hədis 68.
[2] «Üsuli-kafi» cild 2, səh. 114, hədis 7.
[3] «Əl-Fəqih» cild 2, səh. 74, hədis 1772.
[4] «Üsuli-kafi» cild 2, səh. 255; «Biharul-ənvar», cild 72, səh. 213.
[5] «Biharul-ənvar» cild 72, səh. 263.

Qeybətin tərk edilməsi mövzusunda başqa bir hədisdədə belə bir açıqlama verilmişdir: Qeybəti tərk edən şəxsin cənnətə gedəcəyinə dair Allah özü kəfil olmuşdur. Hədisdə belə deyilir: «Altı xüsusiyyət vardır ki, kim o xüsusiyyətlərə malik olduğu halda dünyadan köçərsə, Allah da ona cənnətdə yer verəcəyinə dair kəfil olar... (O halda) kim qardaşının qeybətini etməməyə niyyətlənərsə və bu niyyətlə dünyadan köçərsə, Allah onu cənnətə aparar».[1]

Qeybətdən uzaq duranlar üçün bütün xeyir qapıları açılar. Həzrət Muhəmməd (s) buyurur: «Özündən başqa ilah olmayan Allaha and olsun ki, Allaha ümid bəslədikləri, gözəl əxlaqlı olduqları və möminlərin qeybətindən uzaq durduqları üçün möminlər dünya və axirət xeyirləri nəsib olmuşdur».[2]

---

[1] «Mustədrəkul-vəsail» cild 9, səh. 71, hədis 10405.
[2] «Üsuli-kafi» cild 2, səh. 71, hədis 2.

# 7–Cİ HİSSƏ

## QEYBƏTİN CAİZ OLDUĞU YERLƏR

1- İstişarə məqsədi ilə birinin xüsusiyyətlərindən bəhs etmək...

2 - Açıq-aşkar günah edən şəxs haqqında danışmaq...

3 - Zalımın zülmünü açıqlamaq...

4 - Nəsihət məqsədi ilə birinin pisliklərindən söz açmaq...

5 - Hədis ravilərini araşdırmaq ...

6 - Şəhidlərin kimliyini araşdırmaq ...

7 - Bir xəstənin gizlətdiyi xəstəliyi həkimə demək ...

8 - Ləyaqəti olmayan hökm və fətva sahibləri haqqında danışmaq ...

9 - Bir şəxsi tanıya bilmək üçün hərkəsin bildiyi ləqəbini söyləmək...

10 - Şahidlik edərkən (görməklə şahidlik) başqası haqında danışmaq...

11 - Yoldan çıxan bidət əhli olan şəxslər haqqında danışmaq ...

13 - Kafirlər haqqında danışmaq...

12 - Yalandan özünü başqasına nisbət verən şəxs haqqında danışmaq...

14 - Məchul bir şəxs haqqında danışmaq...

15 - İki şəxsin bir-birilərinə aid olan qüsurlar haqqında danışmaq...

16 - Bir qrup və ya cəmiyyət haqqında danışmaq ...

17 - İsrarla günah edən şəxs haqqında danışmaq ...

18 - Deyilənləri eşidəndə narahat olmayan şəxs haqqında danışmaq ...

19 - Yaxşı işlərə sövq edib pis işlər çəkindirəndə bir şəxs haqqında danışmaq...

20 - Fətva və hökm soruşan zaman birinin qüsurunu açmaq...

21 - Düz yoldan çıxardan kitab və məqalələrə cavab yazarkən yazıçının əleyhinə yazmaq...

22 - Bir zərəri dəf etmək üçün bir şəxsin əleyhinə danışmaq...

23 - Əhli-beyt (ə) düşmənləri haqqında danışmaq, qeybətin caiz olduğu yerlərdir.

İndi isə bu mövzuları ətraflı olaraq nəzərdən keçirək :

**1-Araşdırmaq məqsədi ilə danışmaq:**

Dostluq, evlilik, ticarət və bu kimi önəmli mövzularda istişarə etmək və qarşı tərəfin qüsurunu söyləmək, qeybət olsa da, haram deyildir.

Söylənən qüsurun istişarə edilən mövzuda lazımlı rolu varsa, bəlkə də söyləməmək günahdır. Çünki bir hədisdə deyilir: «Möminə nəsihət etmək müstəhəbdir».[1]

Burada bir neçə diqqət ediləsi nöqtə vardır; Əks tərəfin inanılası bir şəxs olmadığını, onun hər hansı qüsurunu bildirmədən açıqlamaq mümkün olduğu halda qüsuru deməməlidir. Məsələn, evlənmək istəyən bir gəncin qüsurlarını bilən şəxs qız tərəfinə - «Mən filan gəncin bu qızla evlənməsini uyğun bilmirəm» - kimi sözlərlə bu evliliyin qabağını ala bilərsə, daha bu qüsurları bir-bir açıqlaması caiz deyildir.

[1] «Üsuli-kafi» cild 2, səh. 208.

Diqqət edilməsi lazım olan digər bir nöqtə də budur; Araşdıran şəxsin xətadan amanda qalması qarşı tərəfin qüsurunun açıqlanmasına bağlı olduğu halda, zəruri olduğunda qüsuru deyilməlidir. Zəruri olmayan yerdə qüsuru açıqlamaq qeybət sayılır və haramdır.

**2-Açıq-aşkar günah edən şəxs haqqında danışmaq:**

Bir günahı cəmiyyət içində çəkinmədən edən şəxsin qeybəti caizdir. Belə insanlara islamda fasiq və ya facir deyilir.

Burada diqqət edilməsi lazımlı nöqtə budur: Açıq-aydın günah işləmək, digər günahlardan fərqlidir. İnsanların çoxu günahkardır, amma onlardan bəziləri açıq-aşkar olaraq günah etməzlər və bundan çəkinərlər. Amma aşkarda günah edən şəxs günahında israr etməsə belə, aşkarda günah işlətdiyi üçün qeybəti caiz olur. Yəni, aşkarda günah edən və bu mövzuda heç kimdən çəkinməyən şəxsin qeybəti caiz, günahını gizlədən şəxsin qeybəti isə haramdır.

Mərhum Şeyx Ənsari facirin qeybəti haqqında belə deyir: «Facirin qeybəti, heç bir məsləhət göz önünə almadan, sırf qınamaq və alçaltmaq məqsədi olsa belə caizdir. Hətta bu cür insanlara lənət etmənin də heç bir işğalı yoxdur».

İmam Sadiq (ə) buyurur: «Fasiq fisqini aşkar etdiyi zaman hörməti də aradan gedər, qeybəti də edilər».[1]

---

[1] «Vəsailüş-şiə» cild 8, səh. 604-605; «Əl-Məcalis», səh. 24; «Əmali» (Şeyx Səduq) səh. 34; «Kənzul-ummal» cild 3, səh. 595; «Biharul-ənvar», cild 75, səh. 253.

İmam Muhəmməd Baqir (ə) buyurur: «Üç qrupun hörməti olmaz; Həvəslərinə uyan bidətçinin, zalım rəhbərin və açıq-aşkar günah işlədən fasiqin».[1]

İmam Rza (ə) buyurur: «Həya pərdəsini kənara atanın, qeybəti qeybət sayılmaz».[2]

İmam Sadiq (ə) buyurur: «Başqalarıyla müamilələrində zülm etməyən, danışarkən yalana yol verməyən və söz verdiyi zaman yerinə yetirib əhdinə vəfa edən adamın şəxsiyyəti kamil, ədaləti aşkar, qardaşlığı müstəhəbb və qeybəti haramdır».[3]

Qeyd edilən hadisələrə baxdığımız zaman görürük ki, fisqini aşkar edən şəxs həm Allahın hörmətini saxlamadığı, həm də başqalarına hörmət etmədiyi üçün öz hörmətini də heçə vurur. Bunun üçün də başqaları tərəfindən qüsurlarının açıqlanmasının və hörmətinin aradan getməsinin heç bir eybi yoxdur.

**Sual: Fasiqin qeybətində məsləhət lazımdırmı?**

Bu mövzudakı rəvayətlərə nəzər saldığımızda, nəticənin aydın olduğunu görürük. Fasiq, aşkar günah etməkdən çəkinmədiyi kimi, yaxınlıqda olmadığı vaxtlarda çıxan çirkin sözlərdən də çəkinməyəcəkdir. Rəvayətlərə görə heç bir məsləhət söz mövzusu ola bilməz. Bunun üçün də məsləhət olmasa da qeybətinin edilməsində heç bir problem yoxdur.

---

[1] «Vəsailüş-şiə» cild 8, səh. 605; «Qurbul-Əsad» səh. 82; «Biharul-ənvar» cild 75, səh. 253.

[2] «Əl-İxtisas» səh. 242; «Əd-Durrul-Mənsur» cild 6, səh. 97; «Kənzul-ummal» cild 3, səh. 989; «Biharul-ənvar», cild 75, səh. 260.

[3] «Vəsailüş-şiə» cild 8, səh. 597; «Üsuli-kafi», səh. 428; «Səhifətur-Riza (ə)» səh. 7; «Əl-Uyun» səh. 198.

Şeyx Ənsari deyir: «Mən, bu mövzuda məsləhət və ya düzgün bir hədəf olmasının lazımlı olduğunu müdafiə edən bir şəxs görmədim».

Şəhidi-Sani isə, fasiqə lənət etmə və söyüş söymənin caizliyi haqqında «nəhyi-münkər» qəsdinin lazım olduğunu söyləmiş,[1] başqa br yerdə də «Fisqi aşkar olan bir şəxsin qeybətində məsləhət və doğru hədəfin olması lazım deyildir»[2] - demişdir.

Nəticə olaraq; Fasiq haqqındakı rəvayətlərə nəzər saldığımızda, belə insanların heç bir hörmətinin qalmadığını və qeybətlərinin caiz olduğunu görürük. Hörmətli olmayan şəxs üçündə artıq məsləhət söz mövzusu ola bilməz.

**Sual: Fasiqin bilinməyən digər günahları da ifşa edilə bilərmi?**

Şəhidi-Əvvəl və Şəhidi-Sani kimi bir çox alimlərimiz bunun caiz olmadığı açıq-aşkar vurğulamışlar.[3]

Şeyx Ənsari isə, bu mövzuda belə deyir: «Fisqini aşkar edən şəxsin hörmətinin qalmadığını bildirən rəvayətlərə görə, hər bir hallarda fasiqin qeybəti caizdir. Necəki, bəzi alimlərimiz də bu mövzunu açıq-aydın olaraq müdafiə etmişlər».

Şeyx Yusif Bəhrani «Hədaiqun-Nazirə» adlı kitabında bəzi alimlərin özlərinə isnad edərək, aşkar günah edənlərin qeybətinin mütləq olaraq caiz olduğunu bildirmişdir.[4]

---

[1] «Məkasib» səh. 32.
[2] «Ər-Rəzva» cild 2, səh. 346.
[3] «Miftahul-Kiramə» cild 4, səh. 66.
[4] «Hədaiqun-Nazirə» cild 18, səh. 166-167.

**Sual: Bir yerdə fasiq olaraq bilinən şəxsin başqa bir yerdə qeybətinin edilməsinin hökmü nədir? Və yaxud, öz vilayətində aşkar günah işlətməkdən çəkinməyən və başqa bir yerdə yaxşı insan olaraq tanınan və o tərəfdə aşkar günah etməkdən çəkinən şəxsin qeybətini etmək caizmidir?**

Şeyx Ənsari belə deyir: «Qeybətin bu hallarda caiz olduğunu bildirən rəvayətlər, sadəcə günaşı hər yerdə edənləri əhatə etmişdir».

Nəticə olaraq; Aşkar günah edən bir şəxsin qınanması və alçaq tutulması nə qədər caiz olsa da, belə insanların qeybəti, sadəcə olaraq günahı bilinən yerlərdə caizdir. Çünki, qınamaqla insanın qüsurunu yaymaq tam fərqli şeylərdir.[1]

**3-Zalımın zülmünü açıqlamaq:**

Zalım bir şəxsin qeybəti bu şərtlər altında caizdir:

Haqsızlığa və ya zülmə məruz qalan bir şəxs, uğradığı zülmü bir başqasına açmaq istədiyi zaman, şikayət etdiyi şəxsin o haqqı zalimdən alıb məzluma qaytara biləcək gücə malik olması lazımlıdır. Sırf şikayət etmək, dərd açmaq və bu kimi səbəblərlə zalım haqqında danışmaq caiz deyildir.

Məsələn; Bir şəxsin əmisi tərəfindən tarlasına və ya hər hansı bir miras əl haqqına əl qoyduğuna baxaq. Bu halda əmi, qardaşı oğlunun haqqını inkar edən və zorla əl qoyduğu şeyləri ona geri vermək istəməsə, qeyd edilən problemin başqalarına demək doğru olmaz. Amma eyni mövzu, əminin hörmət etdiyi, sözünü dinlədiyi başqa bir şəxsə, məsələn, onun böyük qardaşına deyilə bilər. Beləliklə, qəsb edilən

---

[1] «Məkasib».

haqqın geri alınmasına inam olur. Bu şəkildə edilən qeybət günah deyildir.[1]

Bəzi alimlər, zalımların qeybətini mütləq surətdə caiz bilmişlər. Yəni, haqqı ala bilib-bilməmə imkanı olmasından asılı olmayaraq, sırf şikayət məqsədi ilə olsa belə, caizdir.

Zalımın qeybətinin caiz olduğunu bu ayələrdə açıq-aydın görürük:

وَالَّذِينَ إِذَا أَصَابَهُمُ الْبَغْيُ هُمْ يَنْتَصِرُونَ وَجَزَاءُ سَيِّئَةٍ سَيِّئَةٌ مِثْلُهَا ۖ فَمَنْ
عَفَا وَأَصْلَحَ فَأَجْرُهُ عَلَى اللَّهِ ۚ إِنَّهُ لَا يُحِبُّ الظَّالِمِينَ وَلَمَنِ انْتَصَرَ بَعْدَ ظُلْمِهِ
فَأُولَٰئِكَ مَا عَلَيْهِمْ مِنْ سَبِيلٍ إِنَّمَا السَّبِيلُ عَلَى الَّذِينَ يَظْلِمُونَ النَّاسَ وَيَبْغُونَ
فِي الْأَرْضِ بِغَيْرِ الْحَقِّ ۚ أُولَٰئِكَ لَهُمْ عَذَابٌ أَلِيمٌ

***«Və o kəslər üçün ki, onlar zülmə (təcavüzə) məruz qaldıqda (həddi aşmadan) intiqam alarlar (zalımdan zülmü müqabilində əvəz çıxar, caniyə də etdiyi cinayətin cəzası nədirsə, onu verərlər). Hər hansı bir pisliyin cəzası onun özü kimi bir pislikdir. Bununla belə hər kəs (pislik edəni) bağışlasa və (onunla) barışsa, onun mükafatı Allaha aiddir. Həqiqətən, O, zalımları sevməz! Zülmə məruz qaldıqdan sonra (həddi aşmadan) əvəzini çıxanlara heç bir cəza verilməz (onların heç bir günahı yoxdur, uğradıqları haqsızlığın əvəzini çıxmışlar). Cəza ancaq insanlara (haqsız yerə) zülm edənlərə, yer üzündə fitnə-fəsad törədənlərə verilər. Məhz belələrini şiddətli əzab gözləyir!»***[2]

---

[1] «Kəşfir-Raybə» səh. 77; «Cəvahirul-Kəlam» cild 22, səh. 66; «Məfatihul-Kəramə» cild 4, səh. 66.

[2] «Şura» surəsi, ayə 39-42.

لَا يُحِبُّ اللَّهُ الْجَهْرَ بِالسُّوءِ مِنَ الْقَوْلِ إِلَّا مَنْ ظُلِمَ ۚ وَكَانَ اللَّهُ سَمِيعًا عَلِيمًا

***«Allah pis sözün açıq (ucadan) deyilməsini sevməz. Yalnız zülm olunmuş şəxslər müstəsnadır. Allah (hər şeyi) eşidəndir, biləndir!»***[1]

Bu ayədə pis sözün Allah tərəfində sevilmədiyi vurğulandıqdan sonra, haqsızlığa uğrayan şəxslərin haqlarını geri ala bilmək üçün söylədikləri sözlər istisna edilmişdir.

Qeybət də ayədə buyurulan pis sözlərdəndir. Allah bütün pis sözləri sevmədiyi kimi qeybəti də sevməz.

**4-Nəsihət məqsədi ilə birinin pisliklərindən söz açmaq:**

Bir mömini pis yolda dostlarından uzaq tutmaq üçün qarşı tərəfin qeybətini etmək lazım olarsa, bunun heç bir günahı olmaz. Ancaq edilən nəsihət təsirli olmalıdır. Əgər qüsurun açıqlanmasına baxmayaraq həmin mömin onlarla dostluğunu davam etdirəcəksə, bu halda eybləri açmaq olmaz.

**5-Hədis ravilərini araşdırmaq:**

Hədis elmində «Rical» elmi də öz-özünə bir elm sahəsidir. Bu elmdə hədis ravilərinin kimlikləri araşdırılır. Onların adətləri, inamlı olub-olmamaları və sairlər araşdırılaraq kimlikləri məlum olur.

Hər hədisin Məsumlardan (ə) olduğunu düşünmək doğru deyildir. Çünki, hədisi nəql edən şəxslər də ən azı hədis qədər önəmlidir.

---

[1] «Nisa» surəsi, ayə 148.

Bu üzdən də səhih hədislərlə zəif hədisləri bir-birindən ayıra bilmək üçün hədisçilər araşdırılır, yalançı və ya inamlı insan olmaları bilindikdən sonra hədisə əməl edilir. Bu araşdırma zamanı ravilərin bəzi pis tərəflərindən söhbət açıla bilər. Bu cür söhbətlərdə sadəcə olaraq tərəfin mövzu ilə əlaqədar xüsusiyyətlərində söhbət açıla bilər.

**6-Şahidlərin kimliyini araşdırmaq:**

Hər hansı bir mühakimədə şahidlər varsa və yaxud kiminsə şahidlik etməsi lazımlıdırsa, bu halda onların dürüst insanlar olub-olmadığı araşdırıla bilər. Belə bir halda şahidlər haqqında söz açmağın və ya deyinləri dinləməyin heç bir günahı yoxdur. Ancaq, yuxarıda qeyd edildiyi kimi, təkcə mövzu ilə əlaqədar olan sözlər deyilə bilər. Hər bir halda mövzudan kənara çıxmaq olmaz.

Şahidlərin qeybətinin (haqlarında araşdırma aparmağın) nə üçün caiz olduğuna gəldikdə isə, bunun bir neçə hikməti vardır: Xüsusilə, məhkəmə hökmlərinin əsasən şahidlərin sözlərinə əsasən çıxarıldığına görə belə tədbir görülmüşdür. Həmdə şahidlik məqamının müqəddəsliyi qorunur ki, hər bir şəxs istədiyi zaman yalandan şahidlik etməsin. Belə olan halda insanların şəxsiyyət və qürurları ilə oynanılmır.

**7- Xəstənin gizlətdiyi qüsuru həkimə demək:**

Xəstə razı olmadığı halda belə müalicə edilməsi üçün qüsurlarının həkimə öyrənilməsində heç bir günahı yoxdur. Burada da bir neçə nöqtəyə diqqət edilməlidir:

A) Deyilən qüsurun ciddi və müalicəsinin çox çətin bir müalicə olması lazımdır. Adi bir şeyi söyləmək olmaz.

B) Qüsur haqda həkim hər şeyi bilməlidir.

C) Zərurət qədəri qüsur deyilməlidir. Lazım olmadığı təqdirdə hər bir şeyi demək lazımsızdır.

**8-Ləyaqətli olmayan hökm və fətva sahiblərini araşdırmaq:**

Onların bütün xətalarını dilə götürmək olmaz. Bu şəxslərin verdiyi fətvaların və hökmlərin doğru olmadığını, həqiqətin əksinə olduğu bildirmək üçün edilməlidir. Əks təqdirdə caiz deyildir.

**9-Bir şəxsi tanıya bilmək üçün hər kəsin bildiyi ləqəbini söyləmək:**

Korluq, lallıq və başqa qüsurlarla tanınan bir şəxsi başqasına tanıtdıra bilmək üçün söz, «Bu şəxs kordur» və ya «Hansı Saleh?» sualına cavab olaraq «Kor Saleh?» sualına cavab olaraq «Kor Saleh» demək, qeybət sayılmaz. Ancaq burada da diqqət edilməsi lazım olan bir neçə nöktələr mövcuddur:

A) Qarşı tərəf bu ləqəbi eşitdiyi zamaz narahat olmamalıdır.

B) Onu tanıtdıracaq başqa bir yol olmadığı halda bu tədbirdən istifadə olunmalıdır.

Bu iki şərtə riayət edildiyində, ləqəblə tanıtmaqın heç bir eybi yoxdur. Əks təqdirdə caiz deyildir.

**10-Şahidlik edərkən başqası haqqinda danışmaq:**

Hər hansı bir hadisədə şahidlik etməsi lazım olan bir şəxs, şahid olduğu qüsur və ya günahı danışa bilər. Bu qüsur istər Allaha qarşı işlədilmiş olsun, istərsə də qula qarşı,

şahidlik zamanı bu sirrin dilə gətirilməsində heç bir işkal yoxdur.

Ancaq, daha əvvəldə dediyimiz kimi burada da zərurət miqdarında mövzu ilə əlaqəli günahı dilə gətirərək şahidlik edilməlidir.

**11 – Yoldan çıxan bidət əhli olan şəxslər haqqında danışmaq:**

Bidət, dində olmayan, Quran və hədislərlə uzlaşmayan şeyləri dindən hesab etmək deməkdir. Əvvəlki Peyğəmbərlərin ümmətləri özlərindən sonra dinlərində bidətlər çıxardılar. Həzrət Muhəmmədin (s) ümməti də çox heyif ki əvvəlki ümmətlərdən geri qalmadı. Bu cür insanların qeybətini etmək, onların sifətlərini aşkar edib insanlarla göstərmək, nəinki caiz, hətta vacibdir. Çünki, bidətlər bilinmədikcə və bidətcilərin düşüncələri aşkarlanmadıqca, ortaya atdıqları şeylər dini hesab ediləcək və nəticədə yoldan azmalar baş verəcəkdir.

Bu mövzuda Həzrəti Muhəmməd (s) belə buyurur: «Məndən sonra şəkk və bidət əhli olan şəxsləri görəndə onlardan uzaq durun. Onları lənətləyin, haqlarında danışın, qeybətlərini edin. Elə edin ki, İslam da fəsad etmək üçün bir daha tamah etməsinlər. Xalq da onlardan çəkinsin, bidətlərini öyrənməsin. Belə edəcəyiniz təqdirdə Allah da sizin üçün savablar yazar, dərəcələrinizi yüksəldər».[1]

**12 – Kafirlər haqqında danışmaq:**

İnsanı insan edən şey, azad iradəsi ilə Allahı kəşf etməsidir. Allahı tanımayan, kəşf etməyən insanın

---

[1] «Üsuli-kafi» cild 2, hədis 375.

heyvanlardan heç bir fərqi yoxdur. O, hətta heyvanlar arasında belə nəcis, pis bilinən heyvanlar qurupundandır. Amma yaradanını kəşf edən şəxs Onu kəşf etdiyi an bu alçaqlıqdan azad olaraq Rəbbini tanıyanların əldə etdiyi haqq və hüquqlara sahib olar.

Kafir olaraq qalan şəxsin hər hansı bir dəyəri olmadığı üçün, onların qeybəti də caiz qalar. Çünki, qeybətin haram olması, yaradanın hörmətini qoruyanlar üçündür. Yəni, Yaradanını tanımayan şəxslərin qeybəti haram sayılmaz.

**13 – Yalandan özünü başqasına nisbət verən şəxslər haqqında danışmaq:**

Hər hansı bir dəlili olmadan özünü başqasına nisbət verən, yaxud özünün yalandan filan şəxsin övladı olduğunu bildirən şəxs haqqında danışmaq, onun kimliyini araşdırmaq və bu məqsədlə qeybətini etmək caizdir.

İslam dini nəsillərin qorunmasının qeybətdən çox önəmli olduğunu bildirmiş, nəsillərin qorunması üçün qeybətin belə caiz olduğunu vurğulamışdır.

**14 – Məchul şəxs haqqında danışmaq:**

Ad çəkilmədən hər hansı bir qüsurdan danışmaq qeybət sayılmaz. Necə ki, qeybətin tərifindən də aydın olmuşdur. Ancaq, bu mövzudada bir neçə nöqtəyə diqqət yetirilməlidir:

A) Söhbət zamanı əks tərəfin kimliyini açıqlayan hər hansı bir işarə, əda və yaxud eyhamdan istifadə olunmamalıdır. Yəni, tərəfin kimliyini açıqlayan hər cür danışıq yolu qeybət sayılır.

B) Bəhz edilən bu mövzu azı bir yeri əhatə etməməlidir. Məsələn; «Əhmədin uşaqlarından biri» kimi sözlər qeybət

sayılır. Çünki, söhbət ancaq haqqında danışılan şəxsin uşaqlarını əhatə edir. Həm də, bu söhbət başqa uşaqlar haqqında da sui-zənnə yol açdığı üçün fərqli bir günaha yol açar.

Mühəqqiq Sani, bu mövzu haqqında belə bir açıqlama verir: «Bəzi alimlərimizin özlərindən aydın olduğu qədər qeybət, bilinən şəxslər haqqında və ya bir qisim şəxsi əhatəsinə alan halda deyilən sözlərdir. Əks təqdirdə qeybət sayılmaz. Məsələn; əhalisi çox olan bir şəhərin əhalisi üçün «Bunların çoxu yalançıdır» demək qeybət sayılmaz».[1]

Şeyx Ənsari bu mövzu haqqında belə buyurur: «Mənə görə çoxluq təşkil edən bir cəmiyyət haqqında danışmaq qeybət sayılmaz. Amma bu cəmiyyətin bir hissəsi deyil, cəmiyyət bütünlüklə qəsd edilərsə, şübhəsiz ki, bu, qeybət sayılmır. Məsəslən; Bu şəhərdəkilərin hamısı pisdir.

Başqa sözlə, bir şəxsi və ya bir qurupu qəsd edərək çoxluq təşkil edən bir cəmiyyət danışmaq qeybət sayılmaz».

«Cəvahirul-Kəlam» kitabının müəllifi də bir çox alim kimi bunun caiz olduğunu müdafiə edərək belə deyir: «Cəmiyyətin bütünlüklə qəsd edilmədiyi halda hər-hansı bir pisliyi bir qurupa, bir dəstəyə və ya bir şəhərə inad etmək qeybət sayılmaz. Bu halda qüsuru açan şəxs hər kəsi qəst etmədiyinə aid inandırıcı bir cümlədən istifadə etməlidir».[2]

Məsələn; Özü Ankaradan olduğu halda «Ankaralılar belədir...» deyən bir şəxs, əlbətdəki özü Ankaradan olduğu üçün həm özünü, həm də bütün Ankaralıları qəsd etmişdir.. bu halda bu cür qeybətin işkalı olmaz.

---

[1] «Camiul-Məqaid fi şərhil-Qəvaid».

[2] «Cəvahirul-Kəlam fi şərhil Şərayiil-İslam» cild 22, səh. 65.

**15 – İki şəxsin bir şəxsə aid bildikləri bir qüsuru aralarında danışmaq:**

Hər hansı hadisə haqqında iki və ya bir neçə şəxsin xəbəri varsa, bu şəxslərin həmin hadisə haqqında danışmaları qeybət sayılmaz. Çünki, qeybətin tərəfindən aydın olduğu kimi, bu halda gizli bir eyb açılmır, bu barədə xəbərdar olan şəxslər arasında söhbət gedir. Başqa sözlə, bunun da bir işkalı yoxdur. Ancaq burada da diqqət edilməsi lazım olan bir neçə nöqtə vardır:

A) Söhbətdə hadisənin başqalarına gizli qalan tərəflərindən söhbət etməməlidir.

B) Əgər hadisənin üzərindən çox zaman keçmişsə və hadisə artıq tərəflərin yadından çıxmışsa, o zaman bu hadisəni xatırlamaqdan uzaq durmaq lazımdır.

**16 – İsrarla günah işləyən şəxs haqqında danışmaq:**

Bəzi alimlər israrla günah işləyən şəxsi, həmin günah barədə qeybətinin edilməsini caiz bilmişlər. Məsələn; Namaz qılmayan, «Hələ tezdir, sonra qılaram» deyərək bu günahda israr edən şəxs haqqında, ancaq namaz qılmamağı haqqında danışmağın heç bir işkalı yoxdur.

**17 – Deyilənləri eşitdiyi zaman narahat olmayan şəxslər haqqında danışmaq:**

Bəzi alimlər, haqqında deyilənlərdən narahatlıq duymayan şəxs barədə danışmağın caiz olduğunu bidirmişlər.

Əlbəttə, qeybətin tərifinə diqqət etdiyim zaman da bunun aydın olduğuna şahid oluruq. Çünki, qeybət, danışılmasından narahatlıq duyulan qüsurların başqalarına

çatdırılması deməkdir. Başqa sözlə, deyilən qüsurdan narahatçılıq yaranarsa, o zaman qeybətin mövzusu da aradan gedir.

«Meracus-səadət» adlı əsərin müəllifi Molla Əhməd Nəraqi qeybətin istisna edildiyini 14, 15, 16 və 17-ci maddələr haqqında belə deyir: «Bu dörd yerdə də qeybət haramdır. Çünki, istisna edildiyinə aid heç bir dəlil yoxdur».

**18 – Yaxşı işlərə sövq edib pis işlərdən çəkindirmək:**

Bir şəxsin qüsurlarını açaraq, yaxud da başqa növ dəyişikliklə qeybət edərək pis işlərdən çəkindirmək və yaxşı işlərə dəvət etmək olar və tərəfləri pisliklərdən uzaq etmək üçün bunun heç bir işkalı yoxdur. Ancaq burada da diqqət edilməsi lazım olan bir neçə nöqtə vardır.

A) Bir şəxsin günahının qabağını almaq üçün qeybət edərkən diqqət edilməlidir; Əgər qeybət, ediləcək günahdan böyük günahdırsa və yaxud dərəcə baxımından eynidirsə, bu halda qeybətdən uzaq durulmalıdır. Məsələn: Qeybət edərək bir zinanın qabağı alınacaqsa, o zaman qeybət edilməməli, zinanın qabağı başqa bir yolla alınmalıdır.[1] Çünki qeybət zinadan daha şiddətli bir günahdır. Ancaq, qeybət edərək cinayətin qabağını almaq mükün olduğu zaman qeybət etmək caizdir.

B) Hər hansı bir günahın qabağı qeybətdən başqa bir yolla alına bilərsə, o zaman qeybət etmək caiz deyildir. Qeybət edərək də olsa, insanı daha böyük bir cinayətdən, günahdan qurtarmaq, bir cür yaxşılıq sayılır. Bu, bir növ özündən getmiş insana sillə vurmağa bənzər. Sillə,

---

[1] «Vəsailüş-şiə» cild 11, səh. 393.

özlüyündə xoş bir davranış deyil. Amma özündən gedən bir insanı ayıldmaq üçün gözəl bir üsuldur.

**19 – Fətva və hökm soruşmaq:**

Bəzən dini bir hökmü öyrənə bilmək üçün qarşı tərəfə ad və xüsusiyyətlər ifadə oluna bilər. Bu vəziyətdə də qeybətin qorxusu yoxdur.

Bu mövzu üçün Əbu Süfyanın yoldaşı Hindənin hadisini dəlil olaraq göstərə bilərik: Hində, Peyğəmbərimizin (s) yanına gələrək «Əbu Süfyan xəsisdir; mənə və uşaqlarıma kifayət qədər cibxərcliyi vermir. Görəsən ona söyləmədən ehtiyacımız miqdarın tərəfindən malından ala bilərəmmi?» deyə soruşmuşdu.[1]

Bu rəvayətə baxdığımızda Peyğəmbər (s) Hindəni qeybətdən məhrum etməməsi bu vəziyətin caiz olduğunu göstərməkdir.

Bu rəvayətlərə baxdığımızda görürük ki, Peyğəmbər (s) şikayət edənlərə «qeybət etməyin» deyə etiraz etmir. Əksinə həll yolu göstərir.

Üsul elmində Peyğəmbərin (s) edilən bir hərəkət qarşısında susmasına «təqrir» deyilir. Başqa sözlə Peyğəmbərimizin (s) bir hadisə qarşısında səssiz qalması, o hadisənin təsdiqliyini göstərər və hədis xüsusiyyəti daşıyar.

Nəticə olaraq; bu kimi vəziyyətlərdə Peyğəmbər (s) hər hansı xəbərdarlıq etməməsi, hökm öyrənmək üçün qeybət etmənin caiz olduğunu göstərər, deyə bilərik.

---

[1] «Biharul-ənvər» cild 21, səh. 98; «Sünnəni-İbn Macə» cild 2, səh. 769; «Səhihi-Buxari» cild 7, səh. 85; «Səhihi-Müslim» cild 5, səh. 129.

**20 – İnsanları düz yoldan azdıran yazı və məqalələrə cavab yazmaq:**

İnsanları düz yoldan azdıran, həqiqətləri səhv göstərən kitab, məqalə və sairə yazılara cavab vermək məqsədilə qeybət etmənin də bir qorxusu yoxdur. Çünki, bu vəziyyətdə cavab vermək, qarşı tərəfin qüsurlarını dilə gətirməyi tələb edir. Bu müvzu da hadisənin əhəmiyyətindən ötəri qeybətin caiz olduğu yerdən sayılmışdır.

**21 – Bir zərəri dəf etmək:**

Bir kimsənin qeybətini edərək onu zərərdən və bəladan qurtarmaq caizdir. Necə ki, bu mövzuda İmam Sadir (ə) Zürarə oğlu Abdullaha belə buyurduğu rəvayət edilmişdir: «Məndən atana salam de və de ki: Ey Zürarə! Sənin qüsurunu söyləyərək səni qorudum və müdafiə edim. Çünki (Əhli-beytə (ə) düşmən olan) insanlar, təriflədiyimiz kimsələri daha çox narahat edirlər. Kimi sevsək və özümüzə yaxınlaşdırsaq, onu qınayır, hətta qətlini dahi caiz bilir və qınadıqlarımız (qüsurlu olaraq bildirdiyimiz kəsləri) tərifləyirlər.

Ey Zurarə! Sən qüsurlu biri kimi göstərməmin səbəbi, hər kəs tərəfindən tərəfdarımız olaraq bilinməyindir. (Əgər dost olduğunu bildirsəydim) onların qınağına məruz qalacaqdır. Çünki onlar sənini bu durumunu qəbul edə bilmirlər. Səni qüsurlu göstərməklə dindəki dərəcəni qəbul edəcəklər. Beləcə zərərləri səndən uzaqlaşmış olacaq. Necə ki Qurani-Kərim, Həzrət Xızırın (ə) diliylə belə buyurmaqdadır:

أَمَّا السَّفِينَةُ فَكَانَتْ لِمَسَاكِينَ يَعْمَلُونَ فِي الْبَحْرِ فَأَرَدْتُ أَنْ أَعِيبَهَا وَكَانَ وَرَاءَهُمْ مَلِكٌ يَأْخُذُ كُلَّ سَفِينَةٍ غَصْبًا

***«Bələ ki, gəmi dənizdə çalışıb-vuruşan bir dəstə yoxsula mənsub idi. Mən onu xarab etmək istədim, çünki həmin adamların arasında (yaxud qabağında) hər bir saz gəmini zorla ələ keçirən bir padşah var idi».***[1]

Ey Zurarə! Bu söz Allah tərəfindədir. Bunu bilməyib və əmin olmağını istəyirəm; Aııaha and olsun ki, Xızır (ə) gəmini yalnız zalımın əlindən qurtarmaq və qəsb etməsini əngəlləmək üçün qəzalı hala gətirdi. Halbuki gəmi sağlam idi. Əlhəmdülillah bir qüsur da olmadı. Belə olan halda bu nümunəni anla. Allahın rəhbəri üzərinizə olsun.

Allaha and olsun ki, istər xalq arasında, istərsə də atamın ölən və ya həyatda olan dostları arasında ən çox sevdiyim kimsə sənsən. Sən, bu böyük və dalğalı dənizdə yol alan gəmilərin ən üstünüsən. Zalım və qəsb padşah (Mənsur Dəvaniqi) sənin güdür. Həyatda olduğun müddətcə və öldükdən sonra Allahın rəhməti üzərinə olsun».[2]

Bu rəvayətə baxdığımızda, bəzilərini bəladan qurtarmaq üçün qarşı tərəfin qüsurunu dilə gətirmənin heç bir qorxusunun olmadığını görürük.

Qeyd olunan rəvayətdən bu mövzuları çıxarmaq mümkündür:

a) İslam, bəsirət istəyən bir dindir. Başqa sözlə, insan harada necə davranması lazım olduğunu çox yaxşı bilməlidir. Diqqət yetirilsə, bəzi xüsusi durumlarda haram olan bir şey caiz ola bilməkdədir. Buna görə vəzifəmizin nə

---

[1] «Kəhf» surəsi, ayə 79.

[2] «Vəsailüş-şiə» cild 20, səh. 196; «Camiur-Rivat» cild 1, səh. 32; «Ricali-Kəşşi» səh. 125-126; «Tənbihul-Məqal» cild 1, səh. 441.

olduğunu bilməmiz üçün dini hökümləri də yaxşı bir şəkildə qavramamız lazımdır.

b) Zərəri dəf etmək deyərkən, söz mövzusu edilən zərər sadə bir şey olmamalıdır. Heç olmasa qeybətin çirkinliyinə bərabər və ya daha pis olmalıdır.

c) Zərəri dəf etmək yalnız başqaları üçün söz mövzusu deyil. İnsan özünü hədələyən bir zərəri də qeybətlə kompensasiya edə bilər.

d) Qeybətin, birini bəladan qurtarmaq üçün tək çıxış yolu olduğu vəziyyətlərdə qeybət etmək, hətta vacib sayıla bilər. Məsələn; əgər qeybət edərək qarşı tərəf ölümdən qurtulacaqsa, qeybət etmək vacib olar.

**22-Əhli-beyt (ə) düşmənləri haqqında danışmaq:**

Əhli-beyt (ə); Quran-Kərim açıq bəyanıyla Peyğəmbərimiz (s), İmam Əli (ə), Xanım Fatimə (s.ə), İmam Həsən (ə), İmam Hüseyn (ə) və onun nəslindən olan doqquz imamdan meydana gəlməkdədir. (Allahın salamı onlara olsun)

Peyğəmbər (s) bütün səy və əziyyətlərdən sonra ümməti tərəfindən mükafatlandırılmaq istənildi. Peyğəmbərimiz (s) heç bir şey tələb etməyincə «Məvəddət» ayəsi nazil oldu.

قُلْ لَا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَىٰ ۗ وَمَنْ يَقْتَرِفْ حَسَنَةً نَزِدْ لَهُ فِيهَا حُسْنًا ۚ إِنَّ اللَّهَ غَفُورٌ شَكُورٌ

***«...(Ya Peyğəmbər!) De: «Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (Əhli-beytə sevgidən) başqa bir şey istəmirəm. Kim bir yaxşı iş görərsə, onun yaxşılığının savabının (mükafatını)***

***artırarıq!» Həqiqətən, Allah bağışlayandır, qədirbiləndir! (Şükrün və itaətin, gözəl əməllərin əvəzini verəndir!)»***[1]

Peyğəmbər (s) bütün zəhmətlərinə qarşı ümmətindən yalnız bunu tələb etməsi, olduqca düşündürücüdür. Bəsirət sahibləri bu mövzuda çox təfəkkür etmələri lazımdır.

Rəsuli-Əkrəm (s) istər hədislərində, istərsə də dualarında Əhli-beytini (ə) daim tərifləmiş; onların qanlarını öz qanı və ətlərini öz əti olduğunu bildirmiş; onlarla döyüşənin əslində özünə döyüş açdığını və onları sevənin onu sevdiyini açıq və dəqiq bir şəkldə bəyan etmişdir.

Bu girişin ardından Əhli-beytə (ə) düşmən olanların qeybətinin niyə caiz olduğunu daha yaxşı aydın olduğuna ümid edirəm. Quran və sünnəyə etinasız yanaşaraq Əhli-beytə (ə) eşq və sevqi bəsləməsi lazım olan yerdə onlara dil uzadan və hətta təhqir edən kimsənin neçə hörməti ola bilər ki?

---

[1] «Şura» surəsi, ayə 23.

# 8-Cİ HİSSƏ

# QEYBƏTİN MÜALİCƏ YOLLARI

Qeybət, təhlükəli nəticələr doğuran bir günahdır. Qeybət edən öz əməlini yox etdiyi kimi, etmədiyi günahları da götürər. Bu cür günahlar zamanında müalicə edilmədiyi təqdirdə bəzi ruhi pozğunluqlara gətirib çıxarar. Artıq qeybət, uzaq qaçılması bir daranış olması lazım olan yerdə həzz alılan bir vərdiş halına gəlir. Başqa sözlə bu təhlükəli xəstəlik tez bir zamanda müalicə edilməlidir.

Bu hissədə qeybəti müalicə etmənin yolları araşdıracağıq. Qısası qeybət, iki yolla müalicə edilir: Elmi və praktiki müalicə.

## 1-Elmi müalicə yolları

**1-ci yol: Qeybətin səbəblərini tapmaq:**

Hər xəstəliyin mütləq bir səbəbi vardır. Xəstəliklə mübarizə edə bilmək üçün xəstəliyin səbəbi bilinməlidir. Necə ki müalicənin ilk şərti də budur.

Qeybət üçün də eyni şey etibarlıdır. Qeybət etmənin səbəbləri haqqında araşdırma edəcək olsaq, bunu da müəyyən səbəblərə dayandığını görərik.

İmam Sadiq (ə) bir hədisdə belə buyurmaqdadır: «Qeybətin on səbəbi vardır:

1. Hirsi yatırmaq
2. Başqalarına kömək etmək (danışıqları təsdiq etmək)
3. Araşdırma etmədən xəbəri təsdiqləmək

4. Töhmət etmək
5. Sui-zənn etmək
6. Həsəd etmək
7. Lağ etmək
8. Çaşqınlığ
9. Təhqir olmaq, bezmək
10. İzah edilənləri gözəl göstərmək».[1]

İndi, bu və buna bənzər hədislərdən yola çıxraq qeybətin səbəblərini belə sıralaya bilərik:

## Qeybətə səbəb olan səbəblər

**1-Birinin hirsini yatırmaq**

İnsan bəzən sevmədiyi bir kimsəni xatırladığından, daha əvvəl ona qarşı duyduğu hirsini yatırmaq üçün qarşı tərəfin qeybətini edər və beləcə rahatlamaya və ya özünü təmin etməyə çalışar. Başqa sözlə «Qeybətə səbəb olan başlıca səbəblərdən biri hirsdir» - deyə bilərik.

**2-Kin və nifrət:**

İnsan bəzən nifrət ətdiyi bir kimsə yanında hörmətlə xatırlandığında və ya tərifləndiyində, ona qarşı duyduğu kin və nifrətdən tərəfin bilinməyən qüsurlarını açmağa başlar. Deməк, qeybətin bir başqa səbəbi də kin və nifrətdir.

**3- Qısqanclıq və həsəd:**

Bəziləri, qısqandıqları bir kimsənin adı yaxşılıq və təriflə xatırlandığında qısqanclıqlarından onun bilinməyən qüsurlarını dilə gətirməyə, tərif və hörmət sözləri yerinə

[1] «Biharul-ənvər» cild 72, səh. 258.

düşmənlik çıxarar, beləcə daxillərində olan atəşi yatırmağa çalışarlar. Buna görə «Qeybətə səbəb olan başlıca səbəblərdən biri həsəddir» deyə bilərik.

**4-Zarafat etmək:**

Bəzən də qeybət gülmək, əylənmək və başqalarını güldürmək üçün edilər. Bu cür qeybətlər ümmumiyyətlə heç bir pis niyyət olmadığı halda edilməkdədir.

**5- Lağ etmək:**

Bəzən başqalarına lağ etmək üçün qeybət edilməkdədir. Lağ üçün olsa da başqalarının qüsuru açıldığı üçün bu da qeybət səbəblərindən sayılmışdır.

**6-Öyünmək:**

İnsan bəzən öz üstünlüklərini ortaya çıxarmaq üçün başqalarının qüsurlarını dilə gətirmə texnikasından, məsələn; özünün məlumatlı və təqvalı olduğunu məclisdəkilərə izah etmək üçün: «Filan şəxs elimli deyil!» deyər. Və ya «Təqvalı bildiyiniz şəxsi filan işi edərkən gördüm! Amma əsl təqvalıları görə bilmirsiniz, mən nə edim?» deyərək əsl təqvalı olanın özü olduğunu eyham etməyə çalışar. Başqa sözlə bu da qeybətin səbəblərindəndir.

**7-Nəfis müdafiə:**

İnsan bəzən etmdiyi halda özünə isnad edilən qüsurlardan xilas olmaq və özünü müdafiə etmək üçün: «Bu işi mən etmədim, bu şəxs etdi!» deyərək qeybət edər. Nəfsi müdafiə hər nə qədər təbii bir hadisə olsa da bu, haram bir

yolla olmamalıdır. Başqa sözlə müdafiə etmə məqsədli olsa belə qeybət etmək caiz deyil.

**8-Hər hansı bir qüsur üçün dəlil göstərmək:**

İnsan bəzən etmiş olduğub çirkin və səhv işlərini təmizə çıxartmaq və buna dəlil göstərmək üçün başqasının qeybətini edər. Məsələn «Bunu niyə edirsən, haram deyilmi?» deyə soruşan birinə «Filan şəxsdə eyni edir! O edərkən bir şey olmur, mənə niyə etiraz edirsiniz?» kimi sözlər dəlil olmadığı kimi, qeybət sayılır.

Bu kimi kəslərin üzrü qəbahətindən daha böyükdür. Başqalarının etdikləri Allah yanında bir bəhanə olmadığı kimi, onların da eyni qüsurları işlədiyi açıqlamaq, günah üzərinə başqa bir günah əlavə etmək mənasını verər. Başqa sözlə bu, daha ağır bir günahdır.

Bu kimi insanlar Allaha qarşı işlədikləri qəbahətlər üçün üzr istəyib tövbə etmələri lazım olan yerdə, Allaha qarşı günah işləyən başqa günahkarları özlərinə dəlil və bəhanə göstərməkdədirlər. Halbuki qiyamət günündə hər qoyun öz qıçından asılacaq. Bir başqasının etdiyi günah, kimsə üçün bəhanə ola bilməz. İnsan ən əvvəl olaraq özünü, daha sonra da ətrafdakıları qurtarmalıdır. Əsl üstünlük buradadır.

**9-Dostluq mühiti:**

Bəzi kəslər bir dostluq mühitində özlərinin də eyni yoldaş qrupundan olduqlarını isbat etmək və anlatılanlara iştirak etmək üçün qeybət edərlər. Onlardan ayrılmaq qorxusuyla qeybət edən yoldaşlara səs çıxarmamaq və izah edilənlərə ortaq olmaq da bir başqa qeybət səbəblərindəndir.

**10-Başqasının etibarını zədələmək:**

Bəzən də insan əhəmiyyətli bir adamın yanında öz qeybətinin ediləcəyini düşünərək, qüsurunu açmasından qorxduğu kimsənin etibarını zədələməyə çalışır. Beləcə, izah edəcəklərinə kimsənin etibar etməməsi üçün qarşı tərəfi pis tanıdaraq və ya qüsurlarını aşkar edərək qeybət edər. İnsanların gözündən düşməmək üçün başqalarının qeybətini edərək Allah ilə döyüşməyi seçmək, acizliyin və yazıqlığını göstəricisidir.

**11-Başqasının halına yanmaq:**

İnsanlar bəzən də başqalarında gördüyü bir qüsurdan narahatlıq duyaraq, bu qüsuru bir başqasına yanma məqsədiylə açarlar. Məsələn; qonşusunun yoldaşına təhqir etdiyini görən bir kimsə, bundan narahatlıq duyar və halına yanmaq məqsədiylə başqalarına, «Yazıq qadının bu canavardan çəkdiyi nədir?» kimi sözlər deyərlər. Bu kimi dərdə yanmalar da qeybətdir.

**12-Allah razılığı bəhanə etmək:**

Görülən və ya eşidilən bir səhvi Allah razılığını bəhanə göstərərək və ya buna inanaraq bildirmək də qeybətin səbəbləri arasındadır. Ümumiyyətlə bu cür qeybətlər, dini yaxşı tanımayan və özlərini çox dindar sanan cahillər tərəfindən edilməkdədir. Çünki cəmiyyətimizdə bu cür insanların bu və buna bənzər qəybətləri halal saydıqlarını görməkdəyik. Bu cür insanlar Allaha yaxınlaşmaq istəyərkən Ondan uzaqlaşdıqlarının və Ona düşmən olduqlarının fərqində belə deyirdilər.

**13-Bir çaşqınlığı istifadə etmək:**

İnsanlar bəzən də görmüş olduqları bir qüsur qarşısında çaşqınlığlarını ifadə etmək üçün qeybət edərlər.[1] Məsələn: yalan danışan biri üçün «Bu adama baxın, yaşı bu qədər olmuş, hələ yalan danışır!» demək qeybətdir. Başqa sözlə çaşqınlığ də qeybət səbəblərindən biridir.

**14-Sui-zənn etmək və qüsurları araşdırmaq:**

Sui-zənn etmək, görülən hər şeyi pisə yozmaq deməkdir. İnsanlar gördükləri bəzi şeyləri bəzən səhv qəbul edərək, bəzən də zənnlərinə söykənərək pisə yozarlar. Bu, İslam dinində böyük günahlardandır.

Başqalarına qarşı pis zənndə olmaq, onların qüsurlarını araşdırması tələb edir. Bu da əldə edilən məlumatları başqalarına açmağa və qeybət etməyə səbəb olar. O halda «qeybətə səbəb olan şeylərdən biri də başqalarının qüsurlarını araşdırmaqdır» deyə bilərik.

Qeybət etməmək üçün bu pis xasiyyəti və ya alışqanlığı özündən yox etmək lazımdır. Bunu edən bir kimsə başqalarına pis zənndə olmayacaq, kimsənin qüsurlarını araşdırmayacaq, başqalarına aid xüsusi məlumatları öyrənə bilməyəcək və dolayısıyla qeybət etməyəcək.

**15-Araşdırma aparmadan danışılanları təsdiqləmək:**

Adı çəkilən hadisədə bu mövzu, qeybətə səbəb olan səbəblərdən biri olaraq bəyan edilmişdir. Bəzi ictimai problemlərin buna görə ortya çıxdığı görülməkdədir. Neçə ki uca Allah, bu mövzuda belə buyurur:

---

[1] «Kitabul-Əxlaq» səh. 236.

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنْ جَاءَكُمْ فَاسِقٌ بِنَبَإٍ فَتَبَيَّنُوا أَنْ تُصِيبُوا قَوْمًا بِجَهَالَةٍ فَتُصْبِحُوا عَلَىٰ مَا فَعَلْتُمْ نَادِمِينَ

***«Ey iman gətirənlər! Əgər bir fasiq sizə (pis) bir xəbər gətirsə, dərhal (onun doğruluğunu) yoxlayın, yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşman olarsınız!»***[1]

## 2-ci yol: Məntiqli düşünmək:

Ağıllı bir kimsə bir az düşəcək olsa, əsla qeybət etməz. Çünki qeybətini edəcəyi kimsə onun dostudursa, sirrini və səhvlərini başqalarına söyləməklə ona xəyanət etmiş olar. Eyni şəkildə, bu kimsə əgər düşməndirsə, necə olar ki, qeybət edərək düşmənin günahlarını üzərinə götürər və çeşitli zəhmətlərlə əldə etdyi yaxşı əməllərini ona hədiyyə edir? Doğrusu bu, böyük bir dəlilik olar. Halbuki qeybət, öz-özülüyündə böyük bir dəlilikdir. Çünki ananın övladından, övladın atasından və hər kəsin hər kəsdən qaçdığı qiyamət günündə, yaxşı əməlləri düşmənə təslim etmək, onun günahlarına yüklənmək və cəhənnəmə doğru sanki fədakarlığa yol almaq, əlbəttə ki, böyük bir dəlilikdir.

Bəlkə də, bir az da olsa bu anı təsəvvür etmək və qeybətin aqibətini düşünmək, bu dəliliyin önünü kəsər, deyə düşünürük.

---

[1] «Hucurat» surəsi, ayə 23.

## 3-cü yol: Yaradanı tənqid etməmək:

Qeybət edən kimsənin aşkar etdiyi qüsurlar iki şəkildə düşünülə bilər:

**a) Cismani qüsurlar**

**b) Ruhi (əxlaqi) qüsurlar**

İnsanın yaradılış qüsuru dilə gətirilərək qeybət edilərsə, həqiqətdə bu, Yaradanla lağ etmək sayılar. Çünki, yaradılandakı qüsurla lağ etmək, Yaradanla lağ etmək və ya Onu tənqid etmək deməkdir.

Sonradan əldə edilən qüsurlara gəlincə; bilinməlidir ki, başqalarının qüsurunu açan kimsənin öz qüsurları da xalqa açılar. Çünki, daha əvvəl qeyd etdiyimiz kimi, Allah, belə insanların gizli qüsurlarını nümayiş edəcəyinə və hətta onu öz evində belə rüsvay edəcəyinə dair əhd etmişdir.

Əgər «Mənim başqalarına deyiləcək qüsur və ya səhvim yox!» deyilirsə; o zaman bu hədis təkrar nəzərdən keçirilməlidir: «Günahından ötəri kim bir mömini qınayarsa, (qeybətini etsə), eyni günahı özü də etmədikcə, əsla ölməz»[1]

O halda hər sağlam fikir, qeybətdən əsla xeyir görməyəcəyini yaxşıca bilməlidir. Çünki qeybət edən kimsə ya uca Yaradanla lağ etmişdir, ya da qınadığı şeyin öz başına da gələcəyini göz önünə almışdır.

[1] «Vəsailüş-şiə» cild 8, səh. 596; «Üsuli-kafi» səh. 472; «Əl-Məhasin», səh. 104.

## 4-cü yol: Allahın qəzəbi yerinə rəhmətini düşünmək:

Qeybətlə əlaqədar ayə və hədislərə baxdığımızda Allahın qeybət edənlərə nə qədər qəzəb etdiyini görərik. Qiyamət günündə Allahın rəhmətini gözləyərkən qəzəbiylə qarşılaşmağı əlbəttə ki, heç kim istəməz. O halda, hər ağıl sahibi, qiyamət günü gəlib çatmadan qeybətdən qaçmalı, Allahın, «Sən mənim qulumun qüsurlarını açdın, onu insanların gözündən saldın, indi mən də səni bu qədər məxluqun qarşısında hörmətdən salacaq və alçaq edəcəyəm!» deyərək intiqam almasından qorxmalı və bunları özünə nəsihət qəbul etməlidir.

Həqiqətən də bu, qorxunc vəziyyətdir. Allahın qiyamətə saxladığı doxsan doqquz rəhmət dərəcəsinə baxmayaraq Onun qəzəbinə uğramaq, bu günahın nə qədər çirkin olduğunu gözlər önünə açmaqdadır. Çünki bir rəvayətdə Allahın rəhməti haqqında belə buyurulmaqdadır: «Allahın rəhməti yüz dərəcədir. Bütün məxluqlar arasında yalnız bir dərəcəsini paylamışdır. Geriyə qalan doxsan doqquz dərəcəsini isə qiyamət günü üçün günahkar qullarına ayırmışdır».

O halda qeybət edən bu hədisə baxaraq Rəbblərini nə qədər qəzəbləndirdiyini düşünməli və dərhal tövbə etməlidir.

## 5-ci yol: Uca dərəcələrə çatmağı hədəfləmək:

Ariflər, qeybəti, insan üşün ən çirkin sifət olaraq xarakterizə edir, Allah yanında əsl qulluğun, oruc və namazdan çox qul haqqını güdmək olduğunu vurğulamışlar,

bunun tam əksini isə münafiqlərin xüsusiyyətlərindən saymışlar, buna görə də qeybət tərk edilmədikcə mədəniyyət və seyri-sülukda uca dərəcələrə çata bilməyəcəyini bəyan etmişdir.

Rəsuli-Kərəm (s) bir hədisdə belə buyurur: «Namazı gözəl edənlər, ailəsiylə yaxşı keçinən evlilər, az malı olanlar və müsəlmanların qeybətini etməyənlər cənnətdə mənimlə bərabərdilər».[1]

Deməк, bu hədisə görə qeybət edən bir kimsə, namaz qılan biri olsa belə, cənnətdə Peyğəmbərimizlə (s) birlikdə ola bilməyəcək.

## 6-cı yol: Qeybətin bir cür günaha təşviq olduğunu düşünmək:

Qeybət yalnız tək tərəfli bir günah deyil. Bu günahı həm izah edən, həm də dinləyənlər ortaqdır. Bir kimsənin qüsuru bir və ya daha çox kimsəyə çatdırıldığında yalnız onlar günah işləməklə qalmaz, buna bir də haqqında qeybət edilən kimsənin edəcəkləri də əlavə olunur. Belə ki, haqqında qeybət edildiyini eşidən kimsə, intiqam almaq və ya başqa səbəblərdən ötəri qeybətə qeybətlə cavab vermək istəyər. Bu da günaha təşviş sayılar. Başqa sözlə insan, bunun dünya və axirət günahını da düşünmək məcburiyyətindədir.

İnsan necə öz qüsurlarının örtülü qalmasını istəyirsə, başqalarının qüsurlarına da eyni gözlə baxmalı, örtməli ya da heç olmasa kimsəyə açmamalıdır.

Nə qədər insanlar vardır ki, xalq arasında zahiri davranışlarından ötəri sevilib sayılırlar. Eyni kəslər, bəzən

[1] «Əl-Məhasin», səh. 433.

bəşəri zəifliklərindən ötəri gizli qüsurlar edərlər, bəzən peşman olarlar, bəzən də tövbə etməyi gecikdirərlər. Bu cür qüsurları fərq edən bir kimsə, hər şeydən əvvəl özünü də düşünməli, kimsənin şəxsiyyətiylə oynamamalıdır. Çünki insan öz qüsurlarının da gün üzünə çıxmasını və ya bu qüsurlardan ötəri insanlar arasında alçaq olmağı istəməz. O halda insan özü üçün nə düşünürsə, başqaları üçün də onu düşünməlidir.

Çox təəssuf ki bəzi insanlar, xüsusilə din mövzusunda İslamı əsasları deyil, şəxsləri əsas götürürlər. Başqa sözlə hörmət etdikləri bir kimsənin kiçik də olsa bir günah işlədiyini eşitdiklərində bunu özlərinə bir bəhanə olaraq göstərər, eyni günahın daha ağırını etməyə başlarlar. Bu isə, günaha təşviqin ən aşkar nümunəsidir. Necə ki, İmam Əli (ə) günahın ifşa edilməsini qınayan bir hədisdə belə buyurmaqdadır: «Xəyanətlərin ən çirkini sirri, gizlidə olanı ifşa etməkdir».[1]

## 2- Praktik müalicə

a) Bir iclasda və ya bir söhbət əsnasında danışmaq lazımdırsa, danışmazdan əvvəl nə danışacağı və danışılanların necə olması düşünülməlidir. Belə edildiyi təqdirdə dillə edilən günahlardan da qaçılmış olar.

b) Dialoq halında olan kəslərə, xüsusilə də yoldaş ətrafına diqqət yetirilməli, qeybət etməyən kəslərlə əlaqə qurulmalıdır. Çünki, qeybət mövzusunda həssaslıq göstərilməsinə rəğmən bəzən yoldaşlarının qeybətləri qaçılmaz ola bilər. Daha əvvəl də qeyd edildiyi kimi qeybəti

[1] «Müstədrək» cild 12, səh. 305, hədis 14155.

dinləmək qeybətdən yetmiş qat daha çirkin olduğu üçün, qeybət edən kəslərdən qaçmaq, ya da onlarla əlaqəni kəsmək ən yaxşı olacaqdır.

c) Lazım olan halda dualarda, lazım olanda da münacatlarda, xüsusilə qeybət mühitlərində nəfsi qorumaq və qeybətin şərindən uzaq qalmaq üçün Allahdan yardım dilənməlidir. Necə ki Əhli-beyt (ə) də bəzi dualarda belə etmişlər.[1]

d) Yalnız haram olan qeybətlərdən deyil, caiz olan qeybətlərdən belə çəkinmək lazımdır. Çünki bir şeyin caiz olması, o şeyin mütləq edilməsi anlamına gəlməz.

Allah razılığını göz qarşısında saxlayaraq, nəfsi islah etmək məqsədilə caiz olaraq bilinən yerlərdə də qeybət etməməyə çalışmaq, uyğun bir davranış olacaqdır. Çünki, nəfs və şeytan, bu cür yerlərdə bəzi fitnələrlə pusquda gözləyər və insanı asanca aldadarlar.

O halda başqalarının pisliklərindən çox yaxşı istiqamətləri göz önünə gətirməli və bundan ibrət götürməlidir.

Rəvayət edirlər ki, bir gün Həzrət İsa (ə) həvariləriylə birlikdə bir it leşinin yanından keçirdi. Həvarilər, «Bu leş nə qədər də murdar iy verir!» dedilər. Bunu eşidən Həzrət İsa (ə) belə cavab verdi: «Dişləri nə qədər də ağdır!»[2]

Bu hadisədə Həzrət İsa (ə) ətrafındakılara, bir it leşində belə yaxşı xüsusiyyətlər ola bildiyini vurğulamaqdadır.

---

[1] «Biharul-ənvər» cild 94, səh. 343, hədis 2.
[2] «Biharul-ənvər» cild 14, səh. 327.

# 9-CU HİSSƏ

## QEYBƏTLƏ ƏLAQƏDAR İBRƏTLİ ƏHVALATLAR

### 1-Mükafat

Bir şəxs, yoldaşının yanına gedərək, «Filan şəxs sənin qeybətini etdi!» dedi. O, da halını pozmayıb qeybətini edən kimsə üçün bir hədiyyə hazırladı. Sonra da yerindən qalxıb paketi onun evinə apardı. Qeybətini edən şəxs paketi görüncə, «Bu nədir? Mən sənə bir əmanət verdiyimi xatırlamıram!» dedi.

Qeybəti edilən adam belə cavab verdi: «Yaxşı əməllərini mənə hədiyyə etdiyini eşitdim. Mən də bu hədiyyənin altında qalmamaq üçün səni mükafatlandırmaq istədim!» dedi.

### 2-Necə ölü əti yeyərəm?

Bir şəxs deyir: «Bir neçə adamla bir qəbiristanlıqdan keçirdik. Bu vaxt bir gənc sürətlə yanımızdan keçdi. Onu bu halda görüncə yanımdakılara dönərək, «Bunun kimi gənclər müsəlmanların başına bəla olur!» dedim.

O gecə yuxumda eyni gənci gördüm. Ölmüş tabuta qoyulmuş bir vəziyyətdə yanıma gətirildi. Sonra da əlimə çəngəl-bıçaq verildi. «İndi, yeməyə başla!» deyildi.

«Neçə ildir heyvan əti belə yemirəm. Necə ölü əti yeyərəm?» dedim.

«Sən əslində onun qeybətini etdin; elə isə niyə ətini də yeməyəsən ki?» dedilər. Buna görə də tövbə etdim və ölü gəncin ətini yeməkdən xilas oldum.

Yuxumun ardından bir il boyunca eyni qəbirstanlığa gedib-gəldim. Yalnız o gənci görmək istəyirdim. Nəhayət bir il sonra qarşılaşdıq. Mən bir şey söyləmədən o mənə dönərək, «Tövbə etdinmi?» deyə soruşdu. Bəli, dedim.

- «O halda evinə gedə bilərsən» dedi. «Səni bağışladım!»[1]

**3-Qəbr Əzabı**

Cabir ibn Əbdullah Ənsari deyir: «Peyğəmbərimizlə (s) birlikdə yol gedirdik. Yol üstündə iki məzara rast gəldik. Peyğəmbərimiz (s) onların haqqında belə buyurdu: «Bu iki məzarın sahibləri (bu an) əzab içindədirlər. Çünki onlardan biri davamlı qeybət edir, digəri də təharətə əhəmiyyət vermirdi.[2]

---

[1] «Minhacu-Sadiqin» cild 8, səh. 414.
[2] «Məhəccətul-bəyza» cild 5, səh. 253.

# 10-CU HİSSƏ

# TÖVBƏ

**Tövbə nədir?**

Edilən səhvlərdən peşmanlıq duymaq və bir daha eyni səhvləri işləməmək qeydiylə Allaha dönməyə tövbə deyilir.

Günahsızlar və peyğəmbərlər (ə) xaricində bütün insanlar səhv işləyə bilərlər. İnsanlar günah işləməməyə nə qədər diqqət göstərsələr səhv qaçınılmazdır. Buna görə hər kəs tövbəyə möhtacdır.

Allahın ən bəxtiyar qulu, tövbənin dəyərini bilən və ondan faydalanan kimsədir. Buna qarşı ən pis qul isə, tövbə etməyən və ondan faydalanmayan kimsədir.

Daha açıq bir bəyanla; qiyamət günü, etdikləri qarşısında «Allahım! Bilmirdim, cahillik etdim, şeytanın vəsvəsələri qarşısında bir şey edə bilmədim!» deyən kəslərə; «Tövbə qapısı sənin üçün açıq deyildimi? Səni bu mövzuda məcbur edənmi vardı? Yoxsa tövbə, çox ağır bir yük idimi? Ya da tövbə şərtləri o qədər çətin idi ki, onu yerinə yetirəcək fürsətin olmadı?» deyiləcək.

Bütün bu suallar qarşısında bir cavab tapmayacağın kimi yapışacaq başqa bir şeyin olmayacaq!!

**Tövbə etmək vacibdirmi?**

Bütün alimlər tövbənin vacib olduğu mövzusunda müttəfiqdirlər. Böyük-kiçik olmasından asılı olmayaraq bütün günahlar edildikdə tövbə edilməlidir. Əqli cəhətdən də tövbənin vacib olduğu aydın olur. Çünki, əqlən də gələcək

zərəri dəf etmək lazımdır. Tövbə də böyük zərərləri dəf edən önəmli bir ünsürdür.

İndi də kamil tövbənin necə olduğunu aydınlaşdıraq:

## Kamil tövbə

Bir şəxs İmam Əlinin (ə) yanında «Əstəğfirullah» dedi.

İmam Əli (ə) «Anan sənin matəminə otursun. Sən istiğfarın (tövbənin) nə mənaya gəldiyini bilirsənmi?» - deyə soruşdu və sonra sözünə davam etdi - «Bağışlanma diləmək, İlliyyinin (cənnətdə uca dərəcə əldə edənlərin) məqamıdır, bunun da altı mənası vardır;

1-Keçmiş günahlar üçün peşman olamaq...

2-Bir daha eyni günahları etməmək...

3-Allaha yetişmək, qul haqqında özündən bir şey olmadığı halda qovuşmaq üçün yaradılmışların haqqlarını özlərinə vermək...

4-Sənə vacib olan bütün əmrləri yerinə yetirməyə niyət etmək...

5-Bədənində günahdan əmələ gələn ətləri ətin sümüyə çatacağı qədər zəifləmək, sonra halaldan yenidən ətə qovuşmaq...

6-Bədəninə əvvəlcə günah daddırdığın kimi ibadət zəhmətini də daddırmaq.

Bu şərtlərdən sonra Allahdan bağışlanma diləyə bilərsən».[1]

---

[1] «Vəsailüş-şiə» cild 11, səh. 361.

## Nəsuh tövbəsi

Mərhum Məclisi, nəsuh tövbəsinin mənası haqqında belə buyurur:

1-Nəsuh tövbə, Allah üçün edilən ixlaslı və təmiz bir tövbədir. Qul, Allahın əmirlərinə qarşı çıxdığı üçün pesmanlıq duymuş və tövbə etmisdir. Cəhənnə qorxusu və ya cənnət şövqi tövbəsində təsirli olmamısdı. Bu cür tövbə Nəsuh tövbədir.

2-Nəsuh tövbə, nəsihət verici tövbədir. Qul, bəzən tövbəsilə basqalarına nəsihət vermis olar. Dərin pesmanlığı səbəbi ilə günahkarlar onun tövbəsindən təsirlənər, onlar da tövbəyə yönələr və tövbə əhli olarlar. Bu kimi tövbəkarlar əməlləriylə günahkarlarla nəsihətçi olduqlarından bu tövbəyə nəsuh tövbə deyilmişdir. Ya da qul, səmimiyyət dolu bir tövbənin ardından bütün günahkarlardan təmizlədiyi və ömür boyu heç bir günah mürtəkib olmadığı üçün belə deyilmişdir.

3-Dini əksikliklərin aradan qaldırmasını və ya kompensasiya edilməsini təmin edərək Allahın sevdiyi qulları arasına girməyə də nəsuh tövbə deyilir.

4-Nəsuh tövbə sahibinin bir sifəti olmalıdır. Yəni, tövbəsi ona nəsihətçi olmalı, bütün günahlarının əsərini yox etməli, yaxşılıqlarını artırmalıdır. Belə bir tövbəyə nəsuh tövbə deyilir.

Qısaca, İmam Əlinin (ə) tövbə və istiğfarla əlaqədar sözlərinə lazım olan əhəmiyyəti göstərmək və sıralanan altı şərti yerinə yetirmək nəsuh tövbənin özüdür.

## Tövbənin fəziləti

İstər Qurani-Kərimdə, istərsə də hədislərdə tövbənin bir çox fəzilətindən bəhs edilmişdir. Burada, xülasə olaraq bir neçə fəzilətə toxunacağıq:

**1-Allahın adlarından biri də Təvvabdır:**

Tövbə, Allahın yanında qiymətli bir əməldir. Necə ki, Rəbbimiz, bu mövzuda belə buyurur:

فَتَلَقَّىٰ آدَمُ مِنْ رَبِّهِ كَلِمَاتٍ فَتَابَ عَلَيْهِ ۚ إِنَّهُ هُوَ التَّوَّابُ الرَّحِيمُ

***«(Nəhayət) Adəm rəbbindən (bəzi xüsusi) kəlmələr öyrənərək (Həvva ilə birlikdə o kəlmələr vasitəsilə) tövbə etdi. Doğrudan da, O (Allah) tövbələri qəbul edəndir, mərhəmətlidir».***[1]

إِنَّ اللَّهَ يُحِبُّ التَّوَّابِينَ وَيُحِبُّ الْمُتَطَهِّرِينَ

***«Allah (günahından) tövbə edənləri, (təmiz və) pak olanları sevər!»***[2]

Bu ayələrə diqqət yertirildiyində, Allah tövbə edənlərə nə cür əhəmiyyət verdiyi, sevdiyi, sevdiyi və onlardan təriflə danışdığı görülməkdədir. Yəni, Allah, tövbə edən bir qulunu gördüyündə sevinir. Onun sevincini dərk etmək və vəsfləndirmək qeyri-mümkündür. Amma yenə də bu mövzunu daha yaxşı anlaya bilməmiz üçün bəzi bənzətmələr edilmişdir. Necə ki, İmam Sadiq (ə) bir hədisində belə buyurmaqdadır: «İtirdiyiniz bir şeyi tapdığınızda necə

---

[1] «Bəqərə» surəsi, ayə 37.

[2] «Bəqərə» surəsi, ayə 222.

sevinirsinizsə, Allah da mömin bir qulu tövbə etdiyində (elə) sevinər».[1]

**2- Tövbə günahları yaxşılığa çevirər:**

Tövbəylə Rəbbinə dönən, qaranlıqların üstünü hidayət nuruyla örtən və şeytanın əsarətindən xilas olan bir kimsə, Allah tərəfindən keçmiş günahlarının bağışlanılması və işlənən günahlar yerinə yaxşı əməllərin yazılmasıyla mükafatlandırılar. Deməak, Allah, qullarının hidayətə çatmasını istəməktə və bundan məmnun olmaqdadır. Yenə Qurani-Kərimdə bu mövzu haqda belə buyurulmaqdardır:

إِلَّا مَنْ تَابَ وَآمَنَ وَعَمِلَ عَمَلًا صَالِحًا فَأُولَٰئِكَ يُبَدِّلُ اللَّهُ سَيِّئَاتِهِمْ حَسَنَاتٍ ۗ وَكَانَ اللَّهُ غَفُورًا رَحِيمًا

***«Ancaq tövbə edib iman gətirən və yaxşı işlər görənlərdən başqa! Allah onların pis əməllərini yaxşı əməllərə çevirər. Allah bağışlayandır, rəhm edəndir!»***[2]

Ayədə də deyildiyi kimi, pisliklərin yaxşılığa çevrilə bilməsi üçün tövbəylə birlikdə saleh əməl və saleh əməldə də davamlıqdır şərtdir.

**3-Tövbəkar, mələklərin duasını qazanar:**

Bu mövzu Qurani-Kərimdə belə bildirilmişdir:

الَّذِينَ يَحْمِلُونَ الْعَرْشَ وَمَنْ حَوْلَهُ يُسَبِّحُونَ بِحَمْدِ رَبِّهِمْ وَيُؤْمِنُونَ بِهِ وَيَسْتَغْفِرُونَ لِلَّذِينَ آمَنُوا رَبَّنَا وَسِعْتَ كُلَّ شَيْءٍ رَحْمَةً وَعِلْمًا فَاغْفِرْ لِلَّذِينَ تَابُوا وَاتَّبَعُوا سَبِيلَكَ وَقِهِمْ عَذَابَ الْجَحِيمِ

---

[1] «Üsuli-kafi»

[2] «Furqan» surəsi, ayə 70.

***«Ərşi daşıyanlar və onun ətrafında olanlar (mələklər) öz Rəbbini həmd-səna ilə təqdis edir, Ona (qəlbən) inanır və möminlərin bağışlanmasını diləyərək belə deyirlər: «Ey Rəbbimiz! Sənin rəhmin və elmin hər şeyi ehtiva etmişdir. Artıq tövbə edib Sənin yolunla gedənləri bağışla, onları cəhənnəm əzabından qoru!»***[1]

**4- Tövbə edən cənnətlikdir:**

Yenə bu mövzuda Qurani-Kərimdə belə buyurmaqdadır:

وَالَّذِينَ إِذَا فَعَلُوا فَاحِشَةً أَوْ ظَلَمُوا أَنْفُسَهُمْ ذَكَرُوا اللَّهَ فَاسْتَغْفَرُوا لِذُنُوبِهِمْ وَمَنْ يَغْفِرُ الذُّنُوبَ إِلَّا اللَّهُ وَلَمْ يُصِرُّوا عَلَىٰ مَا فَعَلُوا وَهُمْ يَعْلَمُونَ أُولَٰئِكَ جَزَاؤُهُمْ مَغْفِرَةٌ مِنْ رَبِّهِمْ وَجَنَّاتٌ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا ۚ وَنِعْمَ أَجْرُ الْعَامِلِينَ

***«O müttəqilər ki, bir günah iş gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yada salıb (tövbə edərək) günahlarının bağışlanmasını istəyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Və onlar etdiklərini (gördükləri işin pis olduğunu) bildikdə (tövbədən sonra) bir daha ona qayıtmazlar. Onların mükafatı öz Rəbbi tərəfindən bağışlanmaq və (ağacları) altından çaylar axan cənnətlərdir ki, orada əbədi qalacaqlar. Yaxşı işlər görənlərin mükafatı nə gözəldir!»***[2]

---

[1] «Ğafir (Mumin)» surəsi, ayə 7.
[2] «Ali-İmran» surəsi, ayə 135-136.

**5- Tövbə ömrü uzadar, ruzini bollaşdırar:**

وَأَنِ اسْتَغْفِرُوا رَبَّكُمْ ثُمَّ تُوبُوا إِلَيْهِ يُمَتِّعْكُمْ مَتَاعًا حَسَنًا إِلَىٰ أَجَلٍ مُسَمًّى
وَيُؤْتِ كُلَّ ذِي فَضْلٍ فَضْلَهُ ۖ وَإِنْ تَوَلَّوْا فَإِنِّي أَخَافُ عَلَيْكُمْ عَذَابَ يَوْمٍ كَبِيرٍ

***«Və Rəbbinizdən bağışlanmağınızı diləyəsiniz. Sonra Ona tövbə edin ki, müəyyən bir müddət (ömrünüzün sonunadək) sizə yaxşı gün-güzəran versin və hər bir əməl sahibinə (əməlinin) mükafatını ehsan buyursun. Əgər (imandan, mənim dəvətimdən, öyüd-nəsihətimdən) üz döndərsəniz, bilin ki, mən (müsibəti) böyük günün (qiyamət gününün) sizə üz verəcək əzabından qorxuram».***[1]

İmam Sadiq (ə) mövzuyla əlaqədar olaraq belə buyurar: «Günah ucbatından ölənlərin sayı əcəlləriylə ölənlərin sayından daha çoxdur»[2]

Allah-təala başqa bir ayədə də belə buyurur:

فَقُلْتُ اسْتَغْفِرُوا رَبَّكُمْ إِنَّهُ كَانَ غَفَّارًا يُرْسِلِ السَّمَاءَ عَلَيْكُمْ مِدْرَارًا
وَيُمْدِدْكُمْ بِأَمْوَالٍ وَبَنِينَ وَيَجْعَلْ لَكُمْ جَنَّاتٍ وَيَجْعَلْ لَكُمْ أَنْهَارًا

***«Və dedim: «(Tövbə edib) Rəbbinizdən bağışlanmağınızı diləyin. Çünki O, (tövbə edən bəndəsinin günahlarını) çox bağışlayandır! O sizə göydən bol yağış göndərər; O sizə mal-dövlət, oğul-uşaq əta edər. O sizin üçün bağlar-bağçalar yaradır və çaylar axıdar!»***[3]

---

[1] «Hud» surəsi, ayə 3.
[2] «Səfinətul-Bihar» cild 72, səh. 488.
[3] «Nuh» surəsi, ayə 10-12.

6- **Tövbə duaların qəbul olmasını təmin edər:**

İmam Zeynəlabidin (ə) belə buyurduğu rəvayət edilir: «Bir şəxs ailəsiylə birlikdə bir dəniz yolculuğuna çıxmışdır. Gəmidə bir ziyan meydana gəldi və gəmi batmağa başladı. Həmin şəxsin yoldaşından başqa qalan hər kəs boğularaq ölür. Qadın, gəminin qırıq taxtalarından birinə yapışır, dalğalar onu sürüyərək bir adanın sahilinə gətirir.

Adada Allahın haramlarını tapdalamış və çirkin işlər etmiş bir oğru vardı. Qəflətən bir qadınla qarşılaşınca dərhal yanına qaçdı və...

- İnsansanmı, deyə soruşdu.

Qadın: «Bəli, insanam».

Oğru heç bir şey söyləmədən sanki öz yoldaşı kimi qadına yaxınlaşmağa çalışdı. Qadın, onun niyyətinin pis olduğunu anlayınca titrəməyə başladı.

Oğru: «Niyə titrəyirsən».

Qadın, səmanı işarə edərək: «Allahdan qorxuram».

Oğru: «Daha əvvəl belə bir günah işləmədinmi?»

Qadın: «Allahın izzətinə and olsun ki xeyr».

Oğru: «İndiyə qədər belə bir günah işləməmiş olmağına və səni bu işə məcbur etməyə baxmayaraq Allahdan belə qorxursan. Halbuki mənim daha çox qorxmam lazımdır».

Buna görə oğru, qadına toxunmadı. Etdiklərindən böyük peşmanlıq duyaraq yola düşdü.

Yolda etdiklərini düşünür, öz-özünə, «Allaha dönməkdən və tövbə etməkdən başqa çarəm yox» deyirdi.

Yolda bir rahiblə qarşılaşdı. Birlikdə gedərkən günəşin yandırıcı istiliyindən narahat oldular.

Rahib: «Gəl, dua et, Allah bizlərə bir kölgəlik göndərsin və beləcə günəşdən qorunaq».

Oğru: «Mən Allah yanında hər hansı bir yaxşılığım olduğunu düşünmürəm, hansı üzlə Allahdan bir şey istəyim?»

Rahib: «Elə isə mən dua edim, sən də amin de».

Oğru bu təklifi qəbul etdi. Rahib dua edir, oğru da amin deyir. Allah da bir buludu onlara kölgəlik etdi. Beləcə günün uzun bir bölümünü buludun kölgəsində gedərək keçirdilər.

Yol ayrıcına gəldiklərində bir-birləriylə vidalaşdılar. Ayrılarkən buludun oğruya doğru yönəldiyini gördülər.

Rahib: «Sən məndən daha üstünsən; dua sənin üçün qəbul olunmuş, mənimlə bir əlaqəsi yoxmuş, dedi və gənc yoldaşından başından keçən hadisələri izah etməsini istədi».

Tövbəkar gənc oğru, adadakı hadisəni izah edincə rahib: «Ürəyində ibarət olan yaranan Allah qorxusundan keçmişdə etmiş olduğun günahlar bağışlanmışdır, dedi».[1]

**7-Allah tövbələri qəbul edər:**

Qurani-Kərimdə bu mövzuda belə buyurur:

وَهُوَ الَّذِي يَقْبَلُ التَّوْبَةَ عَنْ عِبَادِهِ وَيَعْفُو عَنِ السَّيِّئَاتِ وَيَعْلَمُ مَا تَفْعَلُونَ

***«Bəndələrinin tövbəsini O qəbul edir, günahları O bağışlayır və sizin nə etdiyinizi də O bilir».***[2]

İmam Sadiq (ə) belə buyurar: «Allah Həzrət Davuda «Ey Davud! Günahkarları müjdələ, möminləri (sadiqləri) qorxut!» - deyə əmr etdi. Həzrət Davud, «Ey Allahım, günahkarları necə müjdələyim, möminləri necə qorxudum?» - deyə soruşdu. Allah belə buyurur: «Günahkarları müjdələ və de ki: Onların tövbələrini qəbul edib günahlarını

---

[1] «Üsuli-kafi» cild 2, səh. 69.
[2] «Şura» surəsi, ayə 25.

bağışlayacağam. Möminləri də qorxut və de ki: Əsla etdiklərindən ötəri özlərini bəyənməyəsinlər».[1]

**8-Günahlar tövbəyə təmizlənər:**

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَىٰ أَنْفُسِهِمْ لَا تَقْنَطُوا مِنْ رَحْمَةِ اللَّهِ ۚ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا ۚ إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

***«(Ya Peyğəmbər! Mənim adımdan qullarıma) de: «Ey Mənim (günah törətməklə) özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir!»***[2]

Göründüyü kimi Allah, tövbə edildiyi təqdirdə hər cür günahı bağışlayacağını bildirmişdir. Necə ki, ayənini nüzul səbəbində də Allahın rəhmət və bağışlanmasının nə cür geniş olduğu gözə çarpmakdadır.

**9- Tövbəni pozmaq əvvəlki tövbənin təsirini yox etməz:**

Tövbə edən və əhdini pozan bir kimsə təkrar günah işlərsə, əvəlki tövbəsi pozular, amma tövbəsinin təsiri yox olmaz. Buna görə yeni edilmiş bir günah üçün yenidən tövbə etməsi lazımdır. Amma daha əvvəl edilən günahlar üçün tövbə edilmiş və pozulmuşsa, yenidən tövbə etmək lazım olmaz.

Bu mövzuyla əlaqədar olaraq Məhəmməd ibn Müslim, İmam Baqirin (ə) belə buyurduğunu rəvayət etməkdədir: «Ey Məhəmməd ibn Müslim! Mömin, etmiş olduğu

---

[1] «Üsuli-kafi» cild 2, səh. 314.
[2] «Zümər» surəsi, ayə 53.

günahlar üçün tövbə etsə, bağışlanır. Tövbəsini ardından gələcəyi üçün gözəl əməllər etməlidir. Allaha and olsun ki bu fəzilət, ancaq iman əhli üçün etibarlıdır».

Məhəmməd ibn Müslim deyir: «Tövbə və istiğfardan sonra təkrar günah edib tövbə etsə, yenə vəziyyət eynidirmi?»

İmam: «Ey Məhəmməd ibn Müslim! Allahın mömin bir qulu günah etdikdən sonra tövbə etsə və Allahdan bağışlanma diləsə, tövbəsinin qəbul olmayacağını düşünürsən? Mömin tövbə edərək Allaha dönsə, Allah da ona onu bağışlar. Çünki Allah, çox bağışlayandır. Tövbəni qəbul edər, pis davranışları bağışlayar. Əsla bir mömini Allahın rəhmətindən ümidsiz etməyəsən!»[1]

**10- Tövbə qapısı son ana qədər açıqdır:**

Rəsuli-Əkrəm (s) bu mövzu haqqında belə buyurur: «Kim ölümündən bir il əvvəl tövbə etsə, Allah tövbəsini qəbul edər; bir il çoxdur (deyirsinizsə) kim ölümündən bir ay əvvəl tövbə etsə, Allah tövbəsini qəbul edər; bir ay da çoxdur (deyirsinizsə) kim ölümündən bir həftə əvvəl tövbə etsə Allah tövbəsini qəbul edər; bir həftə də çoxdur (deyirsinizsə) kim ölümündən bir gün əvvəl tövbə etsə Allah tövbəsini qəbul edər və əgər bir gün də çoxdur (deyirsinizsə) kim ölüm mələyini görmədən əvvəl tövbə etsə, Allah tövbəsini qəbul edər».[2]

Əllamə Məclisi bu hədis haqqında belə bir şərh etməkdədir:

---

[1] «Üsuli-kafi» cild 2, səh. 432.
[2] «Üsuli-kafi» cild 2, səh. 440.

«Adı çəkilən hədisdə tövbənin qəbulu və kamal mərtəbələri mövzu edilmişdir. Çünki günahın daxildə meydana gətirdiyi qaranlıqları aradan qaldırmaq və onu yaxşılıq və yalvarışla işıqlandırmaq üçün ən az bir il kimi bir zaman lazımdır. Bu tərifə görə əgər bir illik bir zaman yoxsa heç olmasa bir ayın, o da mümkün deyilsə, bir həftənin kafi ola biləcəyi vurğulanmaqdadır».

**Bir an əvvəl tövbə etmək vacibdirmi?**

Şeyx Bəhai bu mövzuda belə deyir:

«Heç şübhəsiz tövbə etmək üçün zaman keçirilməməlidir. Çünki zəhərlər necə bədənə zərərlidirsə, günahlar da eyni şəkildə zərərlidir.

Zəhərlənilən bir kimsə, zəhərin bədəninə yayılmaması və ölümə səbəb olmaması üçün necə bir an əvvəl müalicə görmək və beləcə ölümdən xilas olmaq məcburiyyətindədirsə, günahkar da imanının yox olmaması bir an əvvəl tövbə etmək və günahlarını tərk etmək məcburiyyətindədir. Beləcə zəhərlənilən kimsə həyatını, günahkar də imanını qurtarar».[1]

Bu gözəl şərhin ardından indi də tövbə etmənin vacib olduğunu ifadə edən dəlilləri sıralayırıq:

**1. Dəlil: Əcəlin müəyyən olması:**

Hər kəsin bu dünyada təyin olunmuş bir əcəli vardır. Rəbbimiz, hikməti lazımınca onu qullarından gizlətmişdir. Ancaq Onun xüsusi qulları bu vəziyyətdən xəbərdardırlar. Amma bir çox insan əcəlini nə vaxt gələcəyini bilə bilməz.

---

[1] «Şərhi-Ərbəin» Şeyx Bəhai.

Bilindiyi üzrə ölüm anı gəlib çatdığında və qeyb qapıları aralandığında, bütün ümid qapıları da bağlanmış olar. Artıq edilən tövbənin bir faydası olmadığı kimi, bunlar, Allahın qəzəbini daha da artırar. Necə ki Qurani-Kərimdə bu mövzu belə buyurar:

أَفَأَمِنَ أَهْلُ الْقُرَىٰ أَنْ يَأْتِيَهُمْ بَأْسُنَا بَيَاتًا وَهُمْ نَائِمُونَ أَوَأَمِنَ أَهْلُ الْقُرَىٰ أَنْ يَأْتِيَهُمْ بَأْسُنَا ضُحًى وَهُمْ يَلْعَبُونَ

***«Məgər o məmləkətlərin əhalisi əzabımızın onlara gecə yatarkən gəlməyəcəyinə əmin idilərmi? Və ya o məmləkətlərin əhalisi əzabımızın onlara gündüz oynayıb əylənərkən gəlməyəcəyinə arxayın idilərmi?»***[1]

وَأَنْفِقُوا مِنْ مَا رَزَقْنَاكُمْ مِنْ قَبْلِ أَنْ يَأْتِيَ أَحَدَكُمُ الْمَوْتُ فَيَقُولَ رَبِّ لَوْلَا أَخَّرْتَنِي إِلَىٰ أَجَلٍ قَرِيبٍ فَأَصَّدَّقَ وَأَكُنْ مِنَ الصَّالِحِينَ

***«Birinizin ölümü çatıb: «Ey Rəbbim! Mənə bir az möhlət versəydin, sədəqə verib salehlərdən olardım! – deməmişdən əvvəl sizə verdiyim ruzidən (Allah yolunda) xərcləyin».***[2]

Bu ayənin təfsirində belə bir hadisə nəql edilir:

Ölüm mələyi ölməkdə olan birinin canını almaya gəldiyində öləcək olan şəxs, «Nə olar mənə bir gün fürsət ver; tövbə edib axirət səfəri üçün birazca da olsa azuqə yığım» deyər.

Ölüm mələyi: - Ömürünün günləri bitdi!

Öləcək olan şəxs:- Bir saatlıq fürsət ver.

Ölüm mələyi: - Ömürünün saatları da tükəndi!

---

[1] «Əraf» surəsi, ayə 97-98.

[2] «Münafiqun» surəsi, ayə 10.

Beləcə tövbə qapısı ona bağlanar və ruhu bədənindən alınar.

Bu vəziyyətdə insanlar böyük peşmanlıq duyarlar və keçən zamana həsrətlə baxarlar. Halbuki eyni peşmanlığın zərrə qədəri bu dünyada reallaşsa, Allahın xas qullarından olmaq ən asan məsələ olar.

Nəticə olaraq; ölüm anı hər kəsə gizlidir və son anda edilən tövbə qəbul edilməyəcək. Hər sağlam fikir üçün tək qurtuluş yolu günahdan dərhal sonra tövbə etmək və Allah ilə barışmaqdır.

**2. Dəlil: Günah ürəyi möhürləyir:**

Günahlar üst-üstə gəldikcə və tövbə geciktirildikcə, ürəklər də qaralar, möhürlənər. Belə bir ürək əsla tövbə edə bilməz və nəticə cəhənnəmi məkan əldə edər. Bunu bir örnəklə açıqlaya bilərik:

Tərtəmiz bir aynanın üzərinə hər keçən gün toz qonsa çirklənər və zamanla ləkələnər. Zamanla o ləkələr qaralaşar və aynanın hər tərəfini örtər. Belə bir ayna artıq təmizlənməz hala gələr. Başqa sözlə, işə yaramaz. Amma hər gün tozu alınsa sağlam bir şəkildə istifadə edilə bilər.

İnsanın ürəyi də belədir. Buna görə hər gün günahın ardından, zaman itirmədən tövbə edilsə, hər gün tozu alınan və təmizlənib cilalanılan ayna kimi olar. Əks halda qaralanan ürəyin tövbəsi olmayacağı kimi yeri də ancaq cəhənnəm olar.

## Tövbənin dərəcələri

Tövbə, daha əvvəl də açıqlandığı kimi edilənlərdən peşman olmaq və Allaha dönmək mənasını verər. Bu mənaya diqqət yetirilsə, tövbənin, səbəbinə ya da tövbə edən kimsəyə bağlı olaraq bir neçə hissəyə ayrıldığını görərik:

**a) Səbəbə görə tövbə:**

1-Küfrdən imana, tünddən yəqinə və hər batil əqidədən doğru yola dönmək.

2-Böyük günahdan itaətə dönmək.

3-Kiçik günahdan itaətə dönmək.

4-Allahı haqqıyla tanıyaraq Ona qarşı vəzifədə qüsur işləməkdən qorxmaq və bu məqsədlə Allaha dönmək. Bu hal, Allahı xatırlamada edilən qəflətdən onu xatırlamağa ya da Ona uzaq olmaqdan yaxınlaşmağa istiqamətli çevirmədir. Necə ki, bəzi peyğəmbərlərin tövbələri də belədir. Mövzu aydın olsa da qısa olaraq belə yekunlaşdırmaq kafi olar:

Bütün peyğəmbərlər günahsızdırlar. Əsla səhv və ya xoşa gəlməyən bir iş etməzlər. Nəticə etibarı ilə onlar günah və üsyandan uzaqdırlar. Çünki bir günahkarın peyğəmbərliyin əsla düşünülə bilməz. Onlar tövbə etdiklərinə görə, «bizim kimi günah edə bilərlər» nəticəsini almaq çox səhvdir. Nəticədə, onların tövbə və istiğfarları dördüncü qisimdəndir.

İnasanın bacarığı və anlayışı artdıqca şükrü və istiğfarı da artır. Çünki peyğəmbərlər (ə) Allaha bu cür dəyər verilməsi lazım olduğunu çox yaxşı dərk etmişlər. Beləcə Allaha qarşı übudiyyət və bacarıq zirvələrinə çatdıqca

təvazö, xüzu və xüşu da bu zirvələrə çatar. Bu kimi bacarıqlar, xaricə tövbə və dönüş olaraq əks olunar.

Qul, hansı mövqedə olarsa olsun yenə də tövbəyə möhtacdır. Çünki insan, aləmlərin Rəbbinə itaət və şükrü əsla haqqı ilə yerinə yetirə bilməz. Buna görə ənbiya və övliyalar belə tövbələrini dilə gətirmişlər.

Necə ki Peyğəmbər (s) bir münacatında Allaha belə yalvarmışdır:

«...Səni nə layiqiylə tanıya bildik, nə də layiqiylə sənə itaət edə bildik!»

Peyğəmbərimizin bu münacatının ardından Onun niyə gündə 70 dəfə istiğfar etdiyinin [1] hikmətini az da olsa anlamış olduq.

**b) Şəxsə görə tövbə:**

Tövbə, səbəbə görə dörd hissəyə ayrıldığı kimi, şəxsə görə də dörd hissəyə ayrılmaqdadır:

1-Kafirin tövbəsi

2-Müsəlmanın tövbəsi

3-Möminin tövbəsi

4-Övliya və ənbiyanın tövbəsi.

---

[1] «Üsuli-kafi» cild 2, səh. 438.

## Tövbəylə birlikdə edilməsi lazım olan əməllər

Tövbədə peşmanlıq əsas olduğu üçün, tövbəylə birlikdən onu kamilləşdirən bəzi əməllərin edilməsi də tövsiyə edilməkdədir:

**1-Üç gün oruc tutmaq:**

Bu mövzuda İmam Sadiq (ə) belə buyurur: «Allahın əmr etdiyi nəsuh tövbə üçün çərşənbə, cümə axşamı və cümə günləri oruc tut».[1]

**2-Tövbə qüslu və səcdə:**

Rəsuli-Əkrəm (s) tövbə etmək istəyən biri üçün belə buyurdu: «İstər böyük, istər kiçik olsun, kim nə günah edərsə etsin, peşman olub tövbə edən kimsənin tövbəsini Allah mütləq qəbul edər». Sonra yanındakı şəxsə dönərək belə davam etdi: «İndi qalx, qüsl al və Allah üçün səcdə et».[2]

**3-Namaz qılmaq:**

İmam Sadiq (ə) belə buyurmaqdadır: «Kim günah edərsə qalxıb dəstəmaz alsın, iki rükət namaz qılsın və Allahdan bağışlanma diləsin. (Beləcə) Allah tövbənizi qəbul edər. Çünki Allah belə buyurur: «Kim pis iş edər ya da nəfsinə zülm edər, sonra da istiğfar etsə, Allahın bağışlayan olduğunu görər».[3]

---

[1] «Vəsailüş-şiə» cild 11, səh. 363.
[2] «Müstədrək»
[3] «Vəsailüş-şiə» cild 11, səh. 363.

**4-Tövbə və istiğfar duaları oxumaq:**

Məsumlardan (ə) əlimizə çatan tövbə və istiğfar dualarını oxumaq əhəmiyyətlə tövsiyə edilməkdədir. Tövsiyə edilən başlıca dualar bunlardır:

a) Səhifeyi-Səccadiyyə: 31-ci dua.

b) Münacati-Xəmsə Əşr: Bu duanın xüsusilə birinci duası «Tövbəkarların duası» adıyla bilinməkdədir.

c) Əbu Həmzə Somali duası.

d) Kumeyl duası.

ə) Münacati-İmam Əli.

Bu duaları oxuyarkən bəzi mövzularada diqqət yetirilməlidir.

1- Oxunan duaların mənalarına diqqət yetirmək və duanı anlayaraq oxumaq.

2- Oxunan ibarələrlə uyğun olmağa diqqət göstərmək.

3- Dualar sakit bir mühitdə və kimsənin rahatsız etməyəcəyi bir yerdə oxumaq: Çünki insan bəzən içindəkiləri Allaha çatdırmaq və ağlamaq istəyə bilər. Başqa sözlə sıxlıq yerlər bunun üçün uyğun deyil.

4- Duanı tez bitirmək əvəzinə onu anlamağa və idrak etməyə çalışmaq: Yəni, duanın hamısını oxumaq narahatlığa səbəb olacaqsa, qalan qismi sonra oxunmalıdır.

5- Duada, xüsusilə hala salacaq cümlələri qənimət bilmək və üzərindən dərhal keçməmək: Daha açıq bir bəyanla; edilənlər qarşısında peşmanlığı artıran və insanı ağladan cümlələr təkrar edilməli, daha çox ağlanılmalıdır. Çünki bu sözlər ürəyin açarı ola bilər.

## Qeybətdən ötrü tövbə etmək

Qeybət, Allahın əmrinə qarşı gəlməkdən artıq qul haqqını da pozduğu üçün fərqli bir xüsusiyyətə malikdir. Başqa sözlə, qeybətdən ötəri tövbə etmək istəyən bir kimsə Allahdan bağışlanma diləməklə birlikdə qeybətini etdiyi şəxsdən də halallıq almalıdır.

**Qeybət qul haqqını pozduğuna dair dəlillər:**

1-Qeybət, qeybəti edilən kimsəyə qarşı işləyən bir zülmdür.

2-Hədislərdə «Möminin mömin üzərindəki haqqı onun qeybətini etməməkdir» buyurulur.[1]

3-Müsəlmanın qeybətini etmək; cana, mala və namusa təcavüz haramdır.[2]

Buna görə qeybətdən tövbə etmək üçün tək yol, qeybəti edilən kimsədən halallıq almaqdır. Necə ki Peyğəmbər (s) bir hədisində belə buyurur: «Kim bir müsəlmanın qeybətini etsə, qeybəti edilən onu bağışlamadıqca, Allah da onun qırx gün namaz və orucunu qəbul etməz».[3]

Yenə, İmam Zeynəlabidin (ə), Peyğmbərimizin (s) belə buyurduğunu rəvayət edir: «Müsəlmanın, (Müsəlman) qardaşı üzərində otuz haqqı vardır; bu haqlar, onları yerinə yetirmək və ya bağışlamaqla üzərindən qalxar. O haqqlardan biri də (müsəlman qardaşının) qeybətini etməməkdir».[4]

---

[1] «Vəsailüş-şiə» cild 8, səh. 542.
[2] «Vəsailüş-şiə» cild 8, səh. 600.
[3] «Müstədrək» cild 2, səh. 106; «Biharul-ənvər» cild 75, səh. 258; «Caviul-Əxbar» səh. 171.
[4] «Vəsailüş-şiə» cild 8, səh. 550.

Qeybət edən bir kimsə, etdiyi bu günahla başqasının haqqını qəsb etmiş və ya üzərinə almış olar. Başqa sözlə, qəsb edilən bu haqqın kompensasiya edilməsi, ya da sahibinə qaytarılması lazımdır. Qul haqqının aradan qaldırıldığından əmin ola bilmək üçün də qeybəti edilən kimsənin bağışlanması lazımdır. Qeybət edilən kimsəyə yetişmək qeyri-mümkün olsa belə bu haqq yenə insanın üzərində qalar. Bu mövzu fiqhdə oğurluq, qəsb və sair haqqlara bənzər. Qəsb edilən mal, sahibinə çatsın və ya çatdırılması, qul haqqı yenə baqidir və halallıq alınmadıqca da ortadan qalmaz.

## QEYBƏTİN KƏFFARƏSİ

Peyğəmbər (s) qeybətin kəffarəsi haqqında belə buyurur: «Qeybətini etdiyin kimsəni xatırladıqca, onun üçün Allahdan bağışlama dilə».[1]

Şeyx Ənsari bu hədisi zikr etdikdən sonra belə deyir: «Əgər hədisin sənədi doğrudursa,[2] bu hədis digər hədisləri (qeybətin yalnız qeybəti edilən kimsənin bağışlamasıyla bağışlanıla biləcəyini vurğulayan hədislər) məhdudlaşdırar».

Şəhid Sani bu rəvayətləri bir araya gətirərək belə şərh edir: «Bağışlama diləmək, qeybət edənə yetişmədiyi zamanlar üçün etibarlıdır. Çünki halallıq istəmək, fitnəni yaymaq və özünə qaşı kin və dümənçiliyi oyandıracaq bir hala səbəb olsa, onun üçün Allahdan bağışlanma diləmək ən doğru olanıdır. Eyni şəkildə ölən, uzun bir səfərə çıxan və sair kəslərə yetişilməsi mümkün olmayan kəslər sinifindəndir».[3]

Şeyx Ənsari nəticə olaraq belə deyir: «Hədisin sənədi düzgün olmuş olsaydı, mütləq olaraq ona əməl edilərdi. Yəni, yetişilmək imkanı olsun və ya olmasın, istiğfar etmək, qəsb edilən haqqın kompensasiya edilə bilməsi üçün ikinci bir yol ola bilərdi. Amma sənədi düzgün deyilsə, qeybətin əfvi üçün geriyə yalnız halallıq istəmək qalar».

---

[1] «Vəsailüş-şiə» cild 8, səh. 606; «Üsuli-kafi» cild 10, səh. 7.
[2] Qeyd olunan hədisin ravisi Həfs ibn Ömərdir. Həfsin necə bir insan olması barədə rical kitablarında heç bir məlumat yoxdur. «Tənqihul-Məqal» cild 1, səh. 154.
[3] «Kəşfür-Rayb» səh. 111.

## İstiğfar ilə halallıq almanın əhəmiyyəti

İmam Sadiq (ə) bir hədisdə belə buyurur: «Birinin qeybətini etdiyində, əgər söylədiklərin onun qulağına çatmışsa, ondan halalıq al və əgər getməmişsə, Allahdan bağışlanma dilə».[1]

Yenə, İmam Sadiq (ə) başqa bir hədisdə belə buyurur: «Kim birinə zülm etsə, onun üçün Allahdan bağışlanma diləsin. Çünki bu, onun üçün kəffarədir».[2]

Bu hədislərin ardından, qeybətdən ötəri tövbə etmək haqqında bu nəticəyə çatmaq mümkündür.

Qeybəti edilən kəslər üçün Allahdan bağışlanma diləmək, istiğfar etmək, bu vəziyyətlərdə etibarlıdır:

1- Qeybəti edilən kimsə hələ izah edilənləri eşitməmişsə...

2- Qeybət edilən kimsə ölən və ya çatılması mümkün olmayan biridirsə...

3-Halallıq almanın ehtimalla döyüş, cinayət və sair kimi pis nəticələrə səbəb olması vəziyyətində.

Əks halda qeybəti edilən kəslərdən mütləq halallıq almaq lazımdır.

---

[1] «Müstədrək» cild 2, səh. 105; «Məhəccətul-bəyza» cild 5, səh. 27; «Misbahuş-şəriə» səh. 49.

[2] «Üsuli-kafi» cild 2, səh. 336.

# MÜNDƏRİCAT

**ÖN SÖZ**....................................................................4
**1-Cİ HİSSƏ**..............................................................7
Qeybət......................................................................7
**2-Cİ HİSSƏ**..............................................................14
Qeybətlə bağlı ayələr .....................................................14
**3-CÜ HİSSƏ**..............................................................23
Qeybətlə bağlı hədislər....................................................23
Nəchül-bəlağədə qeybət...................................................31
Qeybətin fəlsəfəsi ........................................................33
**4-CÜ HİSSƏ**..............................................................35
Qeybət dinləməyin hökmü ...............................................35
**5-Cİ HİSSƏ**..............................................................40
Qeybətin dünya və axirətə təsiri .......................................40
**6-CI HİSSƏ**..............................................................49
Qeybətdən qaçmağın əhəmiyyəti........................................49
**7-Cİ HİSSƏ**..............................................................52
Qeybətin caiz olduğu yerlər .............................................52
**8-Cİ HİSSƏ**..............................................................72
Qeybətin müalicə yolları..................................................72
1-Elmi müalicə yolları ....................................................72
2- Praktik müalicə..........................................................82
**9-CU HİSSƏ**..............................................................84
Qeybətlə əlaqədar ibrətli əhvalatlar ..................................84
**10-CU HİSSƏ**............................................................86
Tövbə .......................................................................86
Qeybətin kəffarəsi........................................................106